**D İ Q Q Ə T !**

**SƏS QƏZETİNDƏN NOVBƏTİ YENİLİK!**

Səs qəzeti artiq Azərbaycanda ilk dəfə olaraq Video qəzet formatında nəşrə başladı.

Video xəbəri izləmək üçün telefonunuzun kamera bolməsinə daxil olub QR kodunu telefonunuza oxuduraq ekrana gələn linkə daxil olun.
**QEYD:** Android telefonlar üçün QR Code Reader skine proqramını telefonunuza yükləyərək videolara daxil ola bilərsiniz.



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 166 (6130) 23 sentyabr 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

## "Həyata keçirilən tədbirlərin əsas məqsədi Azərbaycan vətəndaşının sağlamlığının qorunmasıdır"

Bax 2




*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Azərbaycana yeni gətirilən təcili tibbi yardım avtomobilləri ilə tanış olublar*

## Birinci vitse-prezident Mehriban Əliyeva Bülbülə qəsəbəsindəki Uşaq İncəsənət Məktəbinin yeni binasının açılışında iştirak edib

Bax 3



***Sentyabrın 22-də Bakının Suraxanı rayonunun Bülbülə qəsəbəsindəki Gülarə Əliyeva adına 3 nömrəli Uşaq İncəsənət Məktəbinin yeni binası istifadəyə verilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının...***

## Valentina Matviyenko: "Azərbaycan bizim üçün strateji tərəfdaş olub və belə olaraq da qalır"

Bax 5



*Xəbər verdiyimiz kimi, Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti Rusiya Federasiyasında səfərdədir. AZƏRTAC xəbər verir ki, səfər çərçivəsində sentyabrın...*

Bax 5

## İtaliya mətbuatı: Ermənistan yeni torpaqlar işğal etmək üçün müharibəyə hazırlaşır




İtaliyanın "Eurasia-news" informasiya portalında "Ermənistan yeni torpaqlar işğal etmək naminə müharibəyə hazırlaşır" sərlövhəli məqalə dərc edilib.

AZƏRTAC xəbər verir ki, yazıda Ermənistan Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin yenidən alovlandığı iyul hadisələrinin ölkəmizin işğal olunmuş ərazilərində qoşunların təmas xəttində deyil, dövlət sərhədində...

## Adil Əliyev: "Erməni tərəfi Azərbaycanın gücünü nə qədər tez anlasa, onlar üçün bir o qədər yaxşı olar"



*"Ermənistan tərəfinin yenidən cəbhənin Tovuz rayonu istiqamətində təxribat törətməsi nəticəsində Azərbaycan Ordusu bir şəhid verdi. Bu, bizim üçün olduqca ağrılıdır, çünki hər bir şəhid torpağa tapşırılarkən həmin ağrı-acını xalq olaraq hamımız hiss edirik". SİA xəbər verir ki, bu fikirləri Milli Məclisin vitse-spikeri Adil Əliyev işğalçı Ermənistanın cəbhə xəttində törətdiyi silahlı təxribatlara münasibətini açıqlayarkən deyib. Onun sözlərinə görə...*

Bax 6

## Rasim Quliyev: "Sülh istəyirsənsə, müharibəyə hazır ol"



**Xalq Ordumuzun gücünə inanır: Hər kəs Ali Baş Komandanın əmrini gözləyir!**



**Dövlət Təhlükəsizliyi Xidməti düşmənin təxribatları ilə əlaqədar əhaliyə müraciət edib**



Bax 7

**Qlobal mafiyanın trilyonluq biznesi: Orqan ticarətinin dəhşətləri**



Bax 10

# “Həyata keçirilən tədbirlərin əsas məqsədi Azərbaycan vətəndaşının sağlamlığının qorunmasıdır”

*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Azərbaycana yeni gətirilən təcili tibbi yardım avtomobilləri ilə tanış olublar*

***Sentyabrın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən ölkəmizə yeni gətirilən təcili tibbi yardım avtomobilləri ilə tanış olublar. Koronavirusla mübarizə çərçivəsində tibbi xidmətlərin keyfiyyətinin daha yüksək səviyyəyə çatdırılması, bu sahədə maddi-texniki bazanın möhkəmləndirilməsi, o cümlədən yeni təcili tibbi yardım avtomobillərinin təminatı vacib amillərdəndir.***




Prezident İlham Əliyevin tapşırığı ilə bu sahədə bütün lazımi işlər görülür. Yeni sifariş olunan təcili tibbi yardım avtomobillərinin ilk hissəsi iyul ayında, növbəti hissəsi isə indi gətirilib.

AZƏRTAC xəbər verir ki, yeni gətirilən avtomobillər həm sadə, həm də reanimobil kimi dəstləşdirilib. Ambulansların salonlarının təchizat səviyyəsi xəstələrə bütün lazımi ilkin, təcili və təxirəsalınmaz tibbi yardımın













göstərilməsinə və reanimasiya tədbirlərinin icra olunmasına imkan verir.

Avtomobillər bir sıra özünəməxsus özəlliklərə malikdir. Belə ki, “Mercedes Sprinter 416” bazasında təcili tibbi yardım avtomobilləri (reanimobil) avadanlıq və burada göstərilən tibbi yardımın genişliyi baxımından digər ambulanslardan fərqlənir. Avtomobillər bir neçə xərəklə - əsas xərək, çoxfunksiyalı xərək (pilləsiz), scoop xərək, onurğa xərəyi, vakuum xərəyi və pompa, daşıma çadırı, üfürülən, dartma və vakuum şina dəstləri, defibrilyator, portativ süni tənəffüs aparatı, inqolyator, elektrokardioqram, reanimasiya çantası və s. vasitələrlə təchiz edilib.

“Ford Transit” bazasında təcili tibbi yardım avtomobilləri isə ana xərək və döşək, sovurma avadanlığı, oksigen balonu və s. ilə təchiz edilib.

Qeyd edək ki, Azərbaycan COVID-19-la ən səmərəli mübarizə aparan ölkələrdəndir. Hazırda ölkəmizdə koronavirus xəstələri üçün 46 xəstəxana xidmət göstərir. Pandemiya dövründə laboratoriyaların sayı isə 6-dan 45-ə çatdırılıb. Modul tipli 11 xəstəxana və 2 hospital istifadədir. Ölkə üzrə aparılan test sayı isə 1 milyonu ötüb. Həyata keçirilən tədbirlərin əsas məqsədi Azərbaycan vətəndaşının sağlamlığının qorunmasıdır.



## “Dost və qardaş Türkiyə ilə Azərbaycan həmişə bir-birinin yanında olacaq”

*Azərbaycan və Türkiyə Prezidentləri arasında telefon danışığı olub*

***Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan sentyabrın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.***

Türkiyə Prezidenti dünən Ermənistanın təxribatı nəticəsində dövlət sərhədində Azərbaycan hərbi qulluqçusunun şəhid olması ilə əlaqədar dövlətimizin başçısına və Azərbaycan xalqına başsağlığı verib.

Prezident İlham Əliyev göstərilən diqqətə və başsağlığına görə minnətdarlığını bildirərək Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Türkiyə Prezidenti və Türkiyə xalqının Azərbaycana daim göstərdiyi dəstəyi yüksək qiymətləndirib. Dövlət başçıları dost və qardaş Türkiyə ilə Azərbaycanın həmişə olduğu kimi, bundan sonra da bir-birinin yanında olacağını vurğulayıblar. Söhbət zamanı ölkələrimiz arasında ikitərəfli münasibətlərin gələcək inkişafı ilə bağlı məsələlər müzakirə edilib.

# Birinci vitse-prezident Mehriban Əliyeva Bülbülə qəsəbəsindəki Uşaq İncəsənət Məktəbinin yeni binasının açılışında iştirak edib





***Sentyabrın 22-də Bakının Suraxanı rayonunun Bülbülə qəsəbəsindəki Gülarə Əliyeva adına 3 nömrəli Uşaq İncəsənət Məktəbinin yeni binası istifadəyə verilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva tədbirdə iştirak edib.***

Birinci vitse-prezident Mehriban Əliyevaya məlumat verildi ki, məktəb 1935-ci ildə musiqi cəmiyyətinin nəzdində yaradılıb, 1940-cı ildən 5 nömrəli Uşaq Musiqi Məktəbi kimi, 1988-ci ildən isə 3 nömrəli Uşaq İncəsənət Məktəbi kimi fəaliyyət göstərməyə başlayıb.

Bildirildi ki, məktəbin ikimərtəbəli binası qəzalı vəziyyətdə olduğundan





Heydər Əliyev Fondu tərəfindən yeni bina inşa edilib. Yeni bina 3 mərtəbədən, 25 sinif otağından, rəqs, rəsm otaqlarından, akt zalından, kitabxana, müəllimlər otağı və yeməkxanadan ibarətdir. Məktəbdə hazırda 17 ixtisas üzrə 493 şagird təhsil alır. Bu ixtisaslar üzrə 110 müəllim fəaliyyət göstərir. Uşaq İncəsənət Məktəbində rəqs və rəsm dərsləri qrup şəklində, digər ixtisaslar fərdi tədris olunur.

İndiyədək məktəbin 35-dən çox şagirdi beynəlxalq müsabiqələr üzrə laureat adına layiq görülüb, 70-ə yaxın şagird isə respublika müsabiqələrində yüksək yerlər tutub. Gülarə Əliyeva adına 3 nömrəli Uşaq İncəsənət Məktəbinin bir sıra tanınmış məzunları da var.

Qeyd edək ki, bu gün Azərbaycanda təhsil və mədəniyyətin inkişafı istiqamətində mühüm addımlar atılır, elm və mədəniyyət xadimlərinə xüsusi diqqət göstərilir. Heydər Əliyev Fondu bu işə önəmli töhfələr verir. Ölkəmizə tanınmış incəsənət xadimləri bəxş etmiş Gülarə Əliyeva adına 3 nömrəli Uşaq İncəsənət Məktəbi üçün ən müasir standartlara cavab verən yeni binanın inşası da Fondun bu sahəyə göstərdiyi diqqət və qayğının bariz nümunəsidir.

# Azərbaycan və Ukrayna Prezidentləri arasında telefon danışığı olub

***Sentyabrın 22-də Ukrayna Prezidenti Vladimir Zelenski Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib. Dövlət başçıları pandemiya ilə mübarizə sahəsində Ukraynada və Azərbaycanda həyata keçirilən işlərdən danışıblar.***



Söhbət zamanı Vladimir Zelenski bildirib ki, Ukraynanın yeni milli təhlükəsizlik strategiyasında Azərbaycan strateji tərəfdaş kimi göstərilib.

Prezident İlham Əliyev, öz növbəsində, qeyd edib ki, Azərbaycan üçün də Ukrayna strateji tərəfdaşdır. Dövlət başçıları Ukraynanın və Azərbaycanın suverenliyi və ərazi bütövlüyü məsələlərində ölkələrimizin bir-birini dəstəklədiyini qeyd ediblər.

Telefon söhbəti zamanı enerji, nəqliyyat, investisiya, aviasiya sənayesi, kənd təsərrüfatı, turizm, humanitar və idman sahələrində əməkdaşlığın genişləndirilməsi üçün konkret addımların atılmasının zəruriliyi qeyd edilib. Prezident İlham Əliyev Ermənistan tərəfindən Azərbaycana qarşı törədilən hərbi təxribatlar barədə Ukrayna Prezidentini məlumatlandırıb.

## Azərbaycan tarı və tar ifaçılıq sənəti UNESCO-da



Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Yasamal rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi UNESCO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil olan Azərbaycanın inciləri haqqında informasiya məktublarının hazırlanması işinə başlayıb. SİA-nın məlumatına görə, ilk informasiya məktubu UNESCO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilmiş Azərbaycan tarı və onun ifaçılıq sənətinə həsr olunub.

Azərbaycan qeyri-maddi mədəni irs nümunələrinin qorunması və beynəlxalq səviyyədə tanınması işində Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın xidmətləri böyükdür. İnformasiya məktubunda tar sözünün mənası, tarın tarixi, Azərbaycan musiqisinin inkişafında tarın rolu və yeri, dahi Üzeyir Hacıbəylinin tar haqqında fikirləri, tar ifaçıları və s. haqqında məlumatlar verilir.

## Valeri Kolyux: "Azərbaycan ilə Ukrayna arasında əməkdaşlıq çox uğurla davam etdirilir"



Ukraynanın milli təhlükəsizliyinə dair qəbul edilən yeni strategiyada Azərbaycanın strateji tərəfdaş kimi müəyyən edilməsi ölkələrimiz arasında bütün sahələrdə əməkdaşlığın yüksək səviyyədə olmasının göstəricisidir. Bu, o deməkdir ki, Azərbaycan ilə Ukrayna arasında bütün sahələrdə heç bir problem yoxdur.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Ukrayna Ali Radasının deputatı, Azərbaycanla parlamentlərarası dostluq qrupunun həmsədri Valeri Kolyux bildirib. Deputat qeyd edib ki, ölkələrimiz arasında əməkdaşlığın bu səviyyəyə yüksəldilməsində Azərbaycanın böyük xidmətləri var.

"Pandemiya dövrünə baxmayaraq, Azərbaycan ilə Ukrayna arasında əməkdaşlıq çox uğurla davam etdirilir. Hər iki ölkə dost, qardaş münasibətləri nümayiş etdirir. İkitərəfli və çoxtərəfli formatlarda, beynəlxalq arenada qarşılıqlı dəstək ifadə olunur", - deyə V.Kolyux əlavə edib. Deputat, həmçinin bildirib ki, bu gün Azərbaycan diasporu Ukraynanın siyasi, iqtisadi və mədəni inkişafına böyük töhfə verir.

# Şağan qəsəbəsində 212 saylı uşaq bağçasının yeni binası istifadəyə verilib

*Birinci vitse-prezident Mehriban Əliyeva tədbirdə iştirak edib*



***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva sentyabrın 22-də Bakının Xəzər rayonunun Şağan qəsəbəsində yerləşən 212 saylı uşaq bağçasının yeni binasının açılışında iştirak edib.***



AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident Mehriban Əliyevaya yeni tikilən bina barədə məlumat verildi.

Bildirildi ki, 212 saylı uşaq bağçasının yerləşdiyi bina 1940-cı ildən fəaliyyət göstərib. 2019-cu ilin sonlarından 2020-ci ilin avqustunadək Heydər Əliyev Fondu tərəfindən ərazidə uşaq bağçası üçün yeni binanın inşası həyata keçirilib.



Qeyd olundu ki, iki mərtəbədən ibarət bağça 100 yerlikdir, burada 4 qrup fəaliyyət göstərir. Bağçada körpələr, orta, böyük və məktəbə hazırlıq qrupları üçün yataq otaqları, uşaqların asudə vaxtlarını keçirmələri üçün oyun otaqları, bufet, yemək otağı var.

Bağçada akt və idman zalları, uşaqların istirahəti və əyləncəsi üçün yaşıl terras, futbol, basketbol sahəsi, balacaların fiziki hazırlığı üçün skaladrom sahəsi, təbiət ilə ünsiyyət üçün əkin sahəsi, uşaqların inkişafının təmin olunması üçün yaradıcılıq otağı da mövcuddur. Bina, həmçinin müəllimlər üçün iş və metodiki otaqlar da yaradılıb.



Qeyd edək ki, Azərbaycanda bütün sahələrdə olduğu kimi, uşaqların sosial müdafiəsinin gücləndirilməsinə, onların sağlam və xoşbəxt böyümələrinə diqqət və qayğı göstərilir. Ölkəmizdə müasir körpələr evi-uşaq bağçalarının istifadəyə verilməsi bunun əyani təsdiqidir. Yeni uşaq tərbiyə müəssisələrinin inşasına, eləcə də mövcud olanların ən müasir tələblər səviyyəsində yenidən qurulmasına Heydər Əliyev Fondu xüsusi töhfələr verir. Heydər Əliyev Fondunun "Məktəbəqədər təhsil müəssisələrinin inkişafı" proqramı bir daha sübut edir ki, uşaqların təlim-tərbiyəsi Fondun fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil edir.

## Ömər Çəlik: Ermənistana bir daha xəbərdarlıq edirik ki, odla oynamasın



Dünən Ermənistan tərəfinin hücumu nəticəsində şəhid olan azərbaycanlı qardaşımıza Allahdan rəhmət diləyirik. Buradan bir daha Ermənistana səslənirik. Türkiyə tərəfi belə hərəkətləri qəbul edə bilməz. AZƏRTAC xəbər verir ki, bu fikri Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının (AKP) sözçüsü Ömər Çəlik AKP İdarə Heyətinin iclasından sonra keçirdiyi mətbuat konfransında söyləyib edib. O deyib: "Ermənistan odla oynadığını bilsin. Bölgədə xaos yaratmaq fəaliyyətinin mərkəzində Ermənistan dayanır. Türkiyə Azərbaycanın yanındadır. Ermənistana bir daha xəbərdarlıq edirik ki, odla oynamasın".

## Ermənistan ordusunda özbaşınalıqlar davam edir



Azərbaycanın işğal edilmiş yaşayış məntəqələrində yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrindən birində böyük səs-küyə səbəb olan cinayət törədilib.

AZƏRTAC erməni KİV-lərinə istinadla xəbər verir ki, leytenant Qor Harutyunyanın əsgər Armen Eqnakosyanı küçə söyüşləri ilə təhqir etməsi səbəbindən başlayan mübahisə nəticəsində dava düşüb. Bundan sonra əsgər zabiti öldürmək qərarına gəlib. A.Eqnakosyan izahatında yazıb ki, təhqir edildiyi üçün avtomat silahdan atəş açmaqla və yaxud da qumbara partlatmaqla leytenant Q.Harutunyanı öldürmək istəyib. Səngərə atdığı qumbara partlasa da, zabit xəsarət almayıb. Əsgər A.Eqnakosyan döyüş mövqeyindən çıxarılıb. Faktla bağlı cinayət işi başlanıb, araşdırmalar aparılır.

## Rusiyalı ekspertlər: Cənubi Qafqazda sülhə nail olunmasının yolu Ermənistanın işğal olunmuş əraziləri tərk etməsidir




Cənubi Qafqazda sülhə nail olunmasının yeganə yolu Ermənistanın BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirməsidir. AZƏRTAC xəbər verir ki, bu fikri "Nasionalnaya oborona" jurnalının baş redaktoru İqor Korotçenko söyləyib. O, təəssüflə bildirib ki, Ermənistan BMT qətnamələrini yerinə yetirməməklə yanaşı, onların reallaşdırılmasını əngəlləyir. Ermənistan qoşunlarının işğal olunmuş Azərbaycan ərazilərindən çıxarılması sülhün bərqərar edilməsinin yeganə yoludur.

Ekspert Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasında irəliləyişə nail olmaq üçün Ermənistana qarşı siyasi və iqtisadi sanksiyalar tətbiq etmək təklifini irəli sürüb. "Bunun alternativi tammiqyaslı hərbi əməliyyatların başlanmasıdır", - deyə İ.Korotçenko bildirib.

Siyasi Tədqiqatlar İnstitutunun direktoru Sergey Markovun Ermənistanı "Kazan formulu"nun müddəalarını yerinə yetirməyə çağırıb. Ekspert deyib ki, Paşinyan bunun üçün siyasi iradə nümayiş etdirməlidir, lakin o, ölkəsindəki radikalların onu ya öldürəcəklərindən, ya da devirəcəklərindən qorxur. "Paşinyan qorxu içində yaşadıqca, ya tammiqyaslı döyüş əməliyyatları başlaya, ya da blokada şəraitində olan Ermənistanda iqtisadi vəziyyət daha da pisləşə bilər. Dağlıq Qarabağ münaqişəsi istənilən halda həll olunmalıdır. Paşinyanın buna münaqişə zonasında vəziyyət pisləşənədək qol qoymağa siyasi iradəsinin çatıb-çatmayacağı məlum deyil", - deyə S.Markov bildirib.

## AŞPA Tofiq Yaqublunun ev dustaqlığına buraxılmasını alqışlayır



Avropa Şurası Parlament Assambleyasının (AŞPA) həmməruzəçiləri Tofiq Yaqublunun sentyabrın 28-də keçiriləcək məhkəmə iclasınadək ev dustaqlığına buraxılmasına dair Bakı Apelyasiya Məhkəməsinin qərarını alqışlayıb. Bu barədəSİA AŞPA-ya istinadən xəbər verir. Həmməruzəçilər qeyd edib ki, bu, gözlənilən bir addım idi: "Biz şadıq ki, Tofiq Yaqublu aclıq aksiyasını dayandırıb".

# Valentina Matviyenko: "Azərbaycan bizim üçün strateji tərəfdaş olub və belə olaraq da qalır"

*Milli Məclisin Sədri Sahibə Qafarova Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının Sədri Valentina Matviyenko ilə görüşüb*

***Xəbər verdiyimiz kimi, Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti Rusiya Federasiyasında səfərdədir. AZƏRTAC xəbər verir ki, səfər çərçivəsində sentyabrın 22-də Milli Məclisin Sədri Sahibə Qafarova Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının Sədri Valentina Matviyenko ilə görüşüb.***



Milli Məclisin Sədri Sahibə Qafarovanı və Azərbaycan nümayəndə heyətini salamlayan Valentina Matviyenko azərbaycanlı parlamentariləri Rusiyada görməkdən məmnunluğunu bildirib. O deyib: "Bu, sizin Milli Məclisin Sədri kimi Rusiyaya ilk səfərinizdir və biz bunu yüksək qiymətləndiririk. Bu, Rusiya parlamenti ilə Azərbaycan Milli Məclisi arasındakı mövcud sıx münasibətləri davam etdirmək baxımından hörmət əlaməti və çox yaxşı niyyətdir. Azərbaycan bizim üçün strateji tərəfdaş olub və belə olaraq da qalır. Parlamentlərarası əməkdaşlıq sözsüz ki, dövlətlərarası münasibətlərin qurulmasında vacib rol oynayır. Biz sizin səfərinizi gözləyirdik və buna böyük əhəmiyyət veririk. Hesab edirəm ki, bu görüş parlamentlərarası dialoq çərçivəsində, ikitərəfli münasibətlərin gündəmində saatların qurulması, narahatedici beynəlxalq problemlərin müzakirəsi, parlamentlərarası əməkdaşlığın gələcək inkişafı baxımından yaxşı imkandır".



Görüşdə Valentina Matviyenko XXI əsr bəşəriyyətin bəlası olan COVID-19-la mübarizədə Azərbaycanın atdığı addımları yüksək qiymətləndirərək, bu sahədə ölkəmizin Rusiyaya verdiyi dəstəyə görə təşəkkür edib.

Söhbət zamanı Valentina Matviyenko Sahibə Qafarovanın sentyabrın 23-də Federal Məclisin Federasiya Şurasında nəzərdə tutulan çıxışı barədə danışaraq deyib: "Demək olar ki, sabahkı sessiyanın ilk iclasını siz açacaqsınız".

Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycan nümayəndə heyətini Rusiyaya dəvət etdiyinə görə Valentina Matviyenkoya təşəkkür edib. O, bu səfərin və keçiriləcək görüşlərin iki ölkənin uğurla inkişaf edən parlamentlərarası münasibətlərinə yeni impuls verəcəyinə əminliyini ifadə edin. Bildirib ki, iki ölkə arasındakı hərtərəfli münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə çatmasında dövlət başçıları İlham Əliyevin və Vladimir Putinin siyasi dialoqu və çoxsaylı qarşılıqlı səfərləri mühüm rol oynayır.

İki ölkə arasında humanitar və mədəni sahələrdə münasibətlərdən danışan Sahibə Qafarova qeyd edib ki, bu əlaqələr heç də iqtisadi və siyasi əlaqələrdən az rol oynamır. Milli Məclisin Sədri iki ölkənin humanitar və mədəni sahələrdə əməkdaşlığının inkişafına Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın böyük töhfələr verdiyini xatırladıb. Bildirib ki, Prezident Vladimir Putin iki ölkə arasındakı humanitar və mədəni əlaqələrin inkişafındakı xidmətlərinə görə Mehriban Əliyevanı 2019-cu ilin noyabrında "Dostluq" ordeni ilə təltif edib. O, mükafatı təqdim edərkən bildirib ki, Mehriban xanım Əliyeva Rusiyanın əsl dostudur.

Milli Məclisin Sədri diqqətə çatdırıb ki, Azərbaycan və Rusiya arasında ikitərəfli əlaqələrin inkişafında sözsüz ki, ölkələrimizin parlamentləri də böyük əhəmiyyət daşıyır. Həm Milli Məclisdə, həm də Federal Məclisdə dostluq qrupları fəaliyyət göstərir. Ümid edirik ki, pandemiya başa çatandan sonra Rusiya və Azərbaycan müxtəlif parlament təşkilatlarında əməkdaşlığı davam etdirəcəklər.

Sahibə Qafarova Azərbaycanda və Rusiyada keçirilən seçkilərdə həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatların müşahidə missiyalarının, ilk növbədə isə MDB Parlamentlərarası Assambleyası çərçivəsində müşahidə missiyalarının qarşılıqlı təcrübə mübadiləsinin faydalı olduğunu xüsusi qeyd edib. Sədr Milli Məclis və Federal Məclis arasında daimi fəaliyyət göstərən İkitərəfli parlamentlərarası komissiyanın qarşılıqlı münasibətlərimizin inkişafına əvəzolunmaz töhfə verəcəyinə əminliyini ifadə edib. Milli Məclisin Sədri yaxın gələcəkdə parlamentlərarası komissiyanın 15 illik yubiley iclasının keçiriləcəyinə ümidvar olduğunu bildirib.

Sahibə Qafarova Azərbaycanın Rusiya Federasiyasının subyektləri ilə əlaqələrə də böyük önəm verdiyini qeyd edib. Bununla bağlı nəzərə çatdırıb ki, Azərbaycan parlamentinin Dağıstan Respublikasının Milli Məclisi və Sankt-Peterburqun Qanunvericilik Məclisi ilə sıx əlaqələri mövcuddur.

Görüş zamanı Dağlıq Qarabağ problemi barədə danışan Milli Məclisin Sədri bildirib ki, bu, təkcə Azərbaycan üçün deyil, bütün region üçün ağrılı münaqişədir və artıq 30 ildən artıqdır ki, mövcuddur. Azərbaycan torpaqlarının 20 faizinin işğal olunması və 1 milyondan artıq qaçqın və məcburi köçkünün mövcudluğu çox böyük problemdir. Münaqişənin həllinə dair BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, NATO-nun, AŞPA-nın, ATƏT-in qəbul etdiyi sənədlər bu gün də icra olunmamış qalır. Ermənistan bu beynəlxalq təşkilatları saymır və təəssüf ki, Ermənistana beynəlxalq birlik tərəfindən adekvat reaksiya göstərilmir. 1994-cü ildə atəşkəs haqqında Bişkekdə razılaşma imzalanmasına baxmayaraq, atəş demək olar ki, bir gün də kəsilməyib. Bu atəş nəticəsində dinc əhali, yaşlılar, uşaqlar qətlə yetirilir.

Ermənistanın sonuncu ən təhlükəli təxribatı isə bu il iyulun 12-də baş verdi. Bu, ona görə çox təhlükəli idi ki, bu hadisələr Qarabağda yox, Ermənistan-Azərbaycan sərhədinin Tovuz rayonu hissəsində baş verdi. Nəticədə hərbi qulluqçular, dinc əhali həlak oldu, dağıntılar baş verdi. Bu təxribatlar bu gün də davam edir və Müdafiə Nazirliyinin məlumatına görə, dünən də Azərbaycanın bir hərbi qulluqçusu həlak oldu. Hadisələrin gedişi onu göstərir ki, Ermənistan böyük müharibəyə hazırlaşır. Münaqişənin həlli ilə məşğul olan Minsk qrupunun həmsədri kimi biz Rusiyanın problemin tezliklə aradan qalxmasında səylərini artıracağına ümid edirik.

Görüşdə Milli Məclisin Sədri Sahibə Qafarova həmkarını ona uyğun bir vaxtda Azərbaycana rəsmi səfərə dəvət edərək deyib: "Əminəm ki, bugünkü görüş, ümumilikdə səfərimiz Azərbaycan və Rusiya arasında dostluq münasibətlərinin inkişafına öz töhfəsini verəcək". Söhbət zamanı tərəfləri maraqlandıran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## İtaliya mətbuatı: Ermənistan yeni torpaqlar işğal etmək üçün müharibəyə hazırlaşır




İtaliyanın "Eurasianews" informasiya portalında "Ermənistan yeni torpaqlar işğal etmək naminə müharibəyə hazırlaşır" sərlövhəli məqalə dərc edilib.

AZƏRTAC xəbər verir ki, yazıda Ermənistan Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin yenidən alovlandığı iyul hadisələrinin ölkəmizin işğal olunmuş ərazilərində qoşunların təmas xəttində deyil, dövlət sərhədində, Azərbaycanın enerji-nəqliyyatı infrastrukturunun keçdiyi strateji əhəmiyyətli Tovuz rayonunda baş verməsinə diqqət yönəldilib.

Yazıda bu hadisələrin səbəblərini araşdırmaq üçün 2018-ci ildə Ermənistanda Nikol Paşinyanın hakimiyyətə gəlişindən sonra bu ölkənin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə əlaqədar danışıqlar prosesini dayandırmağa yönələn, sülh prosesinə xələl gətirən təxribatçı bəyanatları və hərəkətlərini əks etdirən, bölgədə gərginliyi daha da artırmaq və Azərbaycana qarşı yeni genişmiqyaslı hərbi əməliyyatlara başlamaq istiqamətində atdığı addımlara dair məlumatlar təqdim edilib.

## Aydın Hüseynov: "Azərbaycan Ermənistanın bütün təxribatlarına layiqli cavab verəcək"



Bu gün Azərbaycan Ordusu Ermənistanın başlatdığı hərbi təxribatlara layiqli cavab verməyə qadirdir. Bunu Milli Məclisin deputatı, YAP Siyasi Şurasının üzvü Aydın Hüseynov deyib.

Deputat bildirib ki, Ermənistanın rəhbərliyi süni danışıqlarla Dağlıq Qarabağ probleminin sülh yolu ilə həllinə mane olur, status-kvonu indiki vəziyyətdə saxlamağa çalışır: "İyul ayında baş verən hərbi təxribat, mülki vətəndaşlara qarşı terror aktları, avqustda diversiya qrupunun göndərilməsi Ermənistan hakimiyyətinin həyata keçirdiyi siyasətin məntiqi nəticəsidir. Məqsəd danışıqları pozmaq, ondan sonra Azərbaycanı ittiham etmək və status-kvonu dəyişməz saxlamaqdır. Ancaq Azərbaycan imitasiya naminə danışıqlarda iştirak etmək və Ermənistanın bu siyasətinə qoşulmaq niyyətində deyil. Fakitiki olaraq Ermənistanın rəhbərliyi uzun müddətdir ki, təcavüzkar siyasətini davam etdirir və ardıcıl təxribatlar törətməklə danışıqlar prosesini pozur. Ali Baş Komandan cənab İlham Əliyevin də bəyan etdiyi kimi, indiki şəraitdə işğalçı dövlətin rəhbərliyinin cəfəng bəyanatları, təxribat xarakterli addımları danışıqların əhəmiyyətini itirir. Paşinyan öz cəfəng fikirləri ilə danışıqlar prosesinə ciddi zərbə vurur və "Qarabağ Ermənistandır" deməklə danışıqlar prosesini mənasız edir".

A.Hüseynov qeyd edib ki, Azərbaycan heç vaxt danışıqlar formatının dəyişməsinə razı olmayacaq və oyuncaq kriminal xunta rejimi ilə heç bir təmaslardan söhbət gedə bilməz: "Bu gün BMT öz qəbul etdiyi qətnamələrə əməl olunmadığını görür, Avropa İttifaqı, Avropa Parlamenti, Avropa Şurası, digər beynəlxalq təşkilatlar Ermənistanın təcavüzkarlığı ilə bağlı qəbul etdikləri sənədlərə məhəl qoyulmadığının şahididirlər, ATƏT-in Minsk qrupu sülh danışıqlarının heç bir nəticə vermədiyini çox yaxşı anlayır. Belə bir vəziyyətdə Azərbaycanın öz torpaqlarını azad etməsi üçün genişmiqyaslı hərbi əməliyyatlara başlamasını da artıq yaxşı dərk etməlidirlər".

Deputat bildirib ki, bu gün Ermənistan bütün gücü ilə silahlanmağa, müharibəyə hazırlaşır: "Ermənistanın təmas xəttinə yaxın qüvvələrinin cəmləşməsi baş verir. Əgər Ermənistan öz çirkin planlarından əl çəkməsə, onun üçün nəticələr çox ağır olacaq. Azərbaycanın bir şərti var, işğalçı Ermənistan hərbçiləri torpaqlarımızdan qeyd-şərtsiz və tam çıxmalıdır. Prezidentimizin də ötən gün bəyan etdiyi kimi, əgər Ermənistan beynəlxalq hüququ yerə vurursa, BMT-nin qətnamələrinə məhəl qoymursa, Azərbaycan öz torpaqlarını işğaldan azad etmək üçün bütün zəruri addımları atacaq: "Azərbaycan heç vaxt ərazisinin 20 faizinin itirilməsi ilə barışmayacaq. Azərbaycan döyüş əzmi, hərbi gücü və digər məsələlərdə Ermənistandan müqayisəolunmaz dərəcədə yüksəkdədir. Azərbaycan illərdir ki, beynəlxalq təşkilatlardan münaqişənin sülh yolu ilə həllini tələb edir, süni danışıqların nəticə vermədiyini anladır və artıq xaqlın və dövlətin səbrinin tükəndiyini, öz ərazilərini işğaldan azad etmək məcburiyyətində qaldığını bəyan edir. Bunu bütün dünya dövlətləri birdəfəlik anlamalıdır. Ali Baş Komandan İlham Əliyev çox açıq və konkret şəkildə erməni terrorizminin arxasında dayanan güclərə xəbərdarlıq etdi, bütün məsuliyyətin Ermənistanın hərbi-siyasi rəhbərliyinin daşıdığını anlatdı. Ermənilərin hiyləgərliklə və xəbisliklə hərbi təxribatlar törətməsinin yaxşı nəticələnməyəcəyini bəyan etdi. Bu gün hamı Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşib, Onun əmrini gözləyir. Əmin olmaq lazımdır ki, Qarabağ ermənilərdən tezliklə azad olunacaq".

# Adil Əliyev: "Erməni tərəfi Azərbaycanın gücünü nə qədər tez anlasa, onlar üçün bir o qədər yaxşı olar"

*"Ermənistan tərəfinin yenidən cəbhənin Tovuz rayonu istiqamətində təxribat törətməsi nəticəsində Azərbaycan Ordusu bir şəhid verdi. Bu, bizim üçün olduqca ağrılıdır, çünki hər bir şəhid torpağa tapşırılarkən həmin ağrı-acını xalq olaraq hamımız hiss edirik". SİA xəbər verir ki, bu fikirləri Milli Məclisin vitse-spikeri Adil Əliyev işğalçı Ermənistanın cəbhə xəttində törətdiyi silahlı təxribatlarına münasibətini açıqlayarkən deyib. Onun sözlərinə görə, düşmənin son aylar ərzində cəbhədə yenidən fəallaşması bizi bir daha əmin edir ki, Ermənistan hakimiyyəti heç vaxt öz işğalçılıq siyasətindən geri durmayacaq.*



"Münaqişənin tarixinə nəzər salsaq, görərik ki, Ermənistan tərəfi torpaqlarımızın işğalını XX əsrdən etibarən daha ciddi cəhdlə həyata keçirməyə başlamışdı. Lakin Ulu Öndər Heydər Əliyev sovet hakimiyyəti dövründə rəhbər vəzifələrdə olduğu müddətdə Azərbaycanın ərazi bütövlüyünü müdafiə edərək düşmənin işğalçı siyasətinin qarşısının alınmasını təmin etmişdi", xatırladan Adil Əliyevin fikrincə, heç də təsadüfi deyil ki, Ulu Öndər Siyasi Bürodan uzaqlaşdırıldıqdan iki həftə sonra ermənilər yenidən mənfur siyasət yürüdərək öz ərazi iddialarını irəli sürdülər: "Əli Azərbaycan xalqının qanına batmış Qorbaçov eyni xislətdə olduğu Ermənistan tərəfinin mövqeyini müdafiə edərək, Dağlıq Qarabağda xüsusi komitənin yaradılmasını təmin etdi və öz köməkçisi, sonralar erməni lobbisinin maraqlarına xidmət edən Arkadi Volskini həmin komitəyə rəhbər təyin etdi. A.Volskinin dövründən etibarən əvvəlcə Xankəndi, sonra Azərbaycanın digər ərazilərində xalqımıza qarşı etnik təmizləmə siyasətinə başlanıldı, azərbaycanlılar öz əzəli və əbədi torpaqlarını tərk etməyə məcbur qaldı. Sonradan isə Ermənistan tərəfinin 366-cı motoatıcı briqadanın iştirakı ilə törətdiyi soyqırımları, insanlarımızın kütləvi şəkildə öz dədə-baba yurdlarını tərk etmələri, dinc sakinlərimizin, xüsusilə qadın, uşaq və qocaların ağır əzab və iztirablarla öldürülməsi faktı hamımıza məlumdur".

Milli Məclisin sədr müavini onu da qeyd edib ki, mürəkkəb hadisələrin baş verdiyi həmin dövrdə o vaxtkı Azərbaycan hakimiyyətinin bu ağır vəziyyətdən çıxış yolunu tapmaq əvəzinə, dövlətə qarşı xəyanəti, ayrı-ayrı xarici ölkələrin maraqlarına xidmət edərək xalqı öz taleyinə buraxması, həqiqətən də onların qəlbində dövlətimizə, xalqımıza qarşı sədaqət, Vətənə məhəbbət hissinin olmadığını bir daha sübut edir: "Ermənistan tərəfinin apardığı təcavüzkar siyasət yalnız Köçəryan-Sarkisyan cütlüyünün hakimiyyəti dövrünə təsadüf etmir. Bu gün ölkənin baş naziri Paşinyan da öz sələflərinin yolunu davam etdirir və onların işğalçılıq siyasətini həyata keçirir. Bu isə bizə belə qənaətə gəlməyə əsas verir ki, Ermənistanda hakimiyyətdə kimin olmasının heç bir əhəmiyyəti yoxdur, bütün hakimiyyət bir qisim şəxslər tərəfindən idarə olunur. Bugünkü Ermənistan hakimiyyəti Soros rejiminin məhsuludur və təbii ki, Sorosun siyasi diktəsini həyata keçirir, təkcə ona görə yox ki, hakimiyyət komandasının bütün üzvləri ya Soros Fonduna, ya "Transperensy"yə, ya da ki, digər insan hüquqları təşkilatlarına bağlıdırlar. Təbii ki, siyasi sifarişləri yerinə yetirən bu təşkilatlar öz sadiq qullarının iradəsinə uyğun davranırlar".

"Ermənistan tərəfinin məzlum imici alması, özlərini dünyaya yazıq xalq olaraq göstərməsi bizi aldatmamalıdır, onlar, sadəcə, öz maraqları üçün hər cildə girməyi bacarırlar. Belə ki, yaxın keçmişə nəzər salsaq görərik ki, Ermənistanda Paşinyan hakimiyyətə gəldikdən sonra rəsmi və qeyri-rəsmi kanallar vasitəsilə sülhün tərəfində olmasını bildirdi və əvvəlkilərdən fərqli olaraq münaqişənin tez bir zamanda həll edilməsi üçün sülh danışıqlarına başlayacağının anonsunu verdi", deyən Adil Əliyev həmçinin bildirib ki, həmin dövrdə Ermənistanla yanaşı, ATƏT-in Minsk qrupunun həmsədrləri də münaqişənin qısa müddət ərzində sülh yolu ilə həll ediləcəyinin proqnozunu verirdi: "Hətta baş verənlərin fonunda Ermənistanın əvvəlki rəhbərlərinin həbs edilməsi hakimiyyətin öz simasını dəyişməsini əsaslandırmağa imkan versə də, bu gün görürük ki, heç də belə deyilmiş, düşmən öz təcavüzkar mövqeyini, sadəcə, gizlətməyə cəhd etmişdir. Paşinyan hakimiyyətə gəldiyi zaman ordumuzun silahlı birləşmələri tərəfindən həyata keçirilən uğurlu Günnüt əməliyyatının çox da qabardılmamasının səbəbi isə təkcə Ermənistan rəhbərliyinə vaxtın verilməsi yox, eyni zamanda, Azərbaycanın daim hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarına riayət etməsi, münaqişələrin həlli yolu kimi müharibəni qəbul etməməsi və sülhün tərəfində olmasının əyani sübutu idi.

Lakin Nikol Paşinyan az bir müddətdən sonra siyasətdə böyük dəyişiklik etdi və yalvarıcı diplomatiya dilindən uzaqlaşaraq müharibəyə meylli siyasət yürütdü. O, özündən əvvəl bu siyasəti həyata keçirənlərin sonlarının necə olduğunu görürdü, lakin belə məlum olur ki, bundan özünə bir nəticə çıxarmamışdır. Əks halda, ordunun silahlandırılmasını həyata keçirmək, habelə qadınları hərbi təlimlərə cəlb etməklə yanaşı, "Müdafiə haqqında" qanuna dəyişiklik etməklə 70 yaşadək olan ahıl insanları belə silahlandırmağa cəhd etməzdi".

Vitse-spiker hesab edir ki, Ermənistan tərəfi Azərbaycanın müharibəni də, diplomatiyanı da beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsipləri ilə yanaşı, öz tarixinə sadiq qalaraq mərdcəsinə həyata keçirdiyini başa düşür və belə bir vəziyyətdə güclü Azərbaycan Ordusunun qarşısına onlar ahıl adamları çıxarır: "Bu isə o deməkdir ki, insan həyatının onlar üçün heç bir əhəmiyyəti yoxdur. Belə olmasaydı, cəmi 2 ay bundan əvvəl Tovuz rayonunda törətdikləri təxribat zamanı 76 yaşlı vətəndaşımızı qətlə yetirməzdilər. Bu təxribat zamanı üzləşdikləri məğlubiyyəti riyakar hakimiyyət öz millətinə qələbə deyə təqdim edib. Təbii ki, belə olan halda, sual olunur ki, əgər qələbə qazanmısınızsa, niyə gedib Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına yalvarırsınız?

Bu gün Azərbaycanın güclü rəhbəri və ordusu var. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ermənistanın həyata keçirdiyi siyasətlə bağlı sərt mövqedədir. Sentyabrın 21-də Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının 75-ci sessiyası çərçivəsində BMT-nin 75 illiyinə həsr edilmiş Yüksək Səviyyəli İclasda 182 ölkə arasında 6-cı olaraq çıxış edən dövlətimizin başçısı İlham Əliyev bir daha dünyanın diqqətinə çatdırdı ki, "Ermənistanın baş naziri ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə aparılan danışıqların format və mahiyyətini məqsədyönlü şəkildə pozur. Onun "Qarabağ Ermənistandır" bəyanatı danışıqlar prosesinə ciddi zərbədir və o, danışıqlar prosesində əsassız şərtlər irəli sürür. Onun Azərbaycana qarşı irəli sürülmüş qəbuledilməz "yeddi şərti" tərəfimizdən rədd edilmişdir və sülhə nail olunması üçün bizim yeganə şərtimiz var. Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal edilmiş bütün ərazilərindən çıxarılmalıdır! Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın tərkib hissəsi olaraq tanıyır!".

Ermənistan və onun havadarları bir daha başa düşməlidir ki, Azərbaycanın bütün sahələrdə olduğu kimi, diplomatiya sahəsində də qazandığı uğurlar, ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müharibədə də qələbənin əldə edilməsini şərtləndirir. Erməni tərəfi bunu nə qədər tez anlasa, onlar üçün bir o qədər yaxşı olar".

***Rövşən RƏSULOV***

## Bəhruz Quliyev: "Bu cür vəhşi yanaşma tərzi vaxtilə Hitler Almaniyasında yəhudilərə qarşı yönəlmişdi"



Ermənistanın təcavüzkar və işğalçılıq siyasəti bütövlükdə Qafqaz regionu üçün böyük təhlükədir. SİA xəbər verir ki, bu fikirləri Trend-ə "Səs" qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev Prezident İlham Əliyevin BMT Baş Assambleyasının 75-ci sessiyası çərçivəsində BMT-nin 75 illiyinə həsr edilmiş Yüksək Səviyyəli İclasında keçirilmiş videoformatdakı çıxışını şərh edərkən deyib.

Baş redaktorun sözlərinə görə, Prezident İlham Əliyevin səsləndirdiyi fikirlərindən bir sıra məqamları nəticə olaraq hasil etmək mümkündür: "Azərbaycan dövləti daim ATƏT-in Minsk Qrupunun müvafiq fəaliyyəti və qəbul edilən qərarları əsasında sülh danışıqlarına sadiqliyini nümayiş etdirib. Amma biz nəyi müşahidə edirik? Ermənistanın baş naziri açıq-aşkar öz təxribatçı bəyanatları ilə Azərbaycanı müharibəyə təhrik edir. Ermənistanda yetişən yeni nəsil azərbaycanlılara qarşı düşmən gözü ilə baxır. Bu cür vəhşi yanaşma tərzi vaxtilə Hitler Almaniyasında yəhudilərə qarşı yönəlmişdi. Dövlətimizin başçısı bu kimi nüansları xatırlatmaqla BMT çərçivəsində dünyaya mesaj verdi ki, artıq bu cür mənfur siyasətə qarşı qəti etirazlar artırılmalıdır. O cümlədən, Paşinyanın "Qarabağ Ermənistandır" bəyanatı danışıqlar prosesinə yalnız ciddi zərbə vurmur, bütövlükdə həmin prosesi birtərəfli qaydada pozur. Belə olan halda, Azərbaycanın yeganə çıxış yolu beynəlxalq aləmin də tanıdığı və dəstəklədiyi ərazilərin müdafiə etməkdir. Çünki erməni baş nazirin müharibəyə təhrik ritorikası da bu cür nəticəyə gəlməyə zəmin yaradır.

Əbəs deyil ki, cənab Prezident İlham Əliyev çıxışı əsnasında Paşinyanın əsassız şərtlərinə yalnız bir və qəti şərtini irəli sürdü. Vurğuladı ki, onlar qeyd-şərtsiz işğal altındakı ərazilərimizi azad etməlidirlər".

"Bu gün Ermənistanın baş naziri ilə yanaşı, müdafiə naziri də eyni təxribatçı mövqedən çıxış edir, hətta həyasızcasına Azərbaycanı yeni ərazilər uğrunda yeni müharibə bəyanatları ilə hədələyir", deyən Bəhruz Quliyev əlavə edib ki, artıq dünya dövlətləri belə sərsəm bəyanatlara biganə qalmamalıdır: "Onlar gah Gəncə şəhərini vurmaqla, gah strateji obyektlərimizə atəş açmaqla bağlı xəyallara dalırlar. Əlbəttə ki, bu mümkün deyil. Ancaq unudulmamalır ki, Qafqazdan başlayan qığılcım sonradan regiondan kənara da sıçrayaraq, beynəlxalq aləmə erməni təxribatı, hətta erməni faşizmi, erməni terroru təhlükəsini yaşada bilər. Artıq sirr deyil ki, bu gün işğal altındakı ərazilərimizdə qeyri-qanuni məskunlaşmalar aparılır. Məgər dünya birliyi bunu görmür? Düşünürəm ki, ölkə rəhbərimizin bəyanatının bir hissəsi də məhz həmin istiqamətə yönəlib".

"BMT-nin dörd qətnaməsinin mövcud olduğu halda, Ermənistan rəhbərliyinin hələ də siyasi səviyyəsizlik sərgiləməsi onsuz da iqtisadi, sosial və s. cəhətlərdən uçuruma sürüklənən erməni xalqının vəziyyətini daha acınacaqlı hala salır. Əgər işğalçı rejim bənzər ritorikalarından əl çəkməzsə, əlbəttə ki, məsuliyyət Nikol Paşinyan hakimiyyətinin üzərinə düşəcək. Ancaq onda da çox gec olacaq".

## Hikmət Babaoğlu: "ATƏT-in Minsk qrupunun fəaliyyəti substantiv danışıqlara köklənməlidir"



"BMT Baş Assambleyasının 75-ci Sessiyası çərçivəsində BMT-nin 75 illiyinə həsr edilmiş Yüksək Səviyyəli İclasda Prezident İlham Əliyev iki rəsmi statusta çıxış edərək bu gün beynəlxalq münasibətlər sistemində aktual olan bir sıra mühüm məsələlərə toxundu. Bunlardan biri elə BMT və onun Təhlükəsizlik Şurası digəri isə benəlxalq hüquq məsələləri ilə bağlı idi ki, Azərbaycan Prezidenti bu vacib məslələri Qoşulmama Hərəkatının sədri kimi 120 ölkənin adından dilə gətirdi". Bunu SİA-ya "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, millət vəkili Hikmət Babaoğlu deyib.

Deputatın sözlərinə görə, əslində hazırki mürəkkəb beynəlxalq şəraitdə hüququn aliliyi və onun tətbiqi ən aktual məsələdir: "Çünki bu sahədə ikili standartlar, bəzi hallarda ayrı-ayrı hegemon dövlətlərin iradəsinin beynəlxalq hüquqdan üstün tutulması hüququn gücünün yox gücün hüququnun keçərli olduğunu əyani şəkildə göstərir. Bu isə istənilən halda beynəlxalq hüququn nizmalayıcı funksiyasını kölgədə qoymaqla elə BMT-nin nüfuzuna böyük zərbə vurmuş olur. Xüsusilə BMT TŞ-nın bəzi qərarlarının icra edilməmiş qalması, həmin qərarların hətta icra mexanizmlərinin olduğu halda tətbiq edilməməsi yaxud ayrı-ayrı hallarda bunun seçmə üsulu ilə edilməsi əlbətdə ki, yolverilməzdir və beynəlxalq hüququn obyektivliyinə ciddi şübhələr yaradır. Elə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ probleminin həlli ilə bağlı BMT TŞ-nın qəbul etdiyi 4 qətnamənin bu günə qədər icra edilməmiş qalması dediklərimizin ən əyani sübutudur. Ona görə də Azərbaycan Prezidenti İlham Əliyev öz çıxışında bu məsələləri diqqətə alaraq qeyd etdi ki, bu gün dünyanın hər zaman olduğundan daha çox beynəlxalq hüquqa hörmət və bunu təmin etmək iqtidarında olan səmərəli qlobal təsisatlara ehtiyacı var.

Yaranmasının 75-ci ildönümündə biz BMT-nin gücləndirilməsi və müasirləşdirilməsi, Baş Assambleyanın canlandırılması, beynəlxalq sülh və təhlükəsizlik sahəsində təşkilatın demokratik, məsuliyyətli, universal və təmsilçiliyi təmin edən orqanı kimi nüfuzunun möhkəmləndirilməsi, habelə müasir geosiyasi reallıqlara cavab verən daha demokratik, məhsuldar, səmərəli, şəffaf və təmsilçiliyi təmin edən orqana çevrilməsi üçün BMT Təhlükəsizlik Şurasında islahatların aparılmasına çağırırıq. Bu çağırış mühüm bir çağırış olmaqla əslində realizə ediləcəyi təqdirdə BMT-nin fəliyyətində yeni keyfiyyət mərhələsi yarada biləcək bir çağırışdır. Çünki doğurdan da hazırda belə bir yenilənməyə çox böyük ehtiyac var.

İkinci mühüm istiqamət İlham Əliyevin Azərbaycan Prezidenti kimi çıxışında öz əksini tapan fikirlər idi ki, bu çıxış bir daha beynəlxalq tribunadan Ermənistanın işğalçılıq siyasətinin ifşa edilməsi kimi xarakterizə oluna bilər. Azərbaycan Prezidenti BMT TŞ-nın işğalçı Ermənistanın ordu birləşmələrinin qeydsiz-şərtsiz işğal edilmiş ərazilərimizdən çıxarılmasını tələb edən 4 qətnamənin olmasına baxmayaraq işğalın hələ də davam etdiyini bildirdi. Üstəlik hazırki mərhələdə yeni torpaq işğalı üçün hərbi siyasi hazırlıq içərisində olan Ermənistanda qonşu ölkəyə münasibətin nifrət üzərində quruluduğunu, nasizmə və faşizmə söykəndiyini bildirərək qeyd etdi ki, təcavüzkar ritorika və təxribatlar Ermənistanın Azərbaycana qarşı yeni təcavüzə hazırlaşdığını nümayiş etdirir. Biz BMT-ni və beynəlxalq ictimaiyyəti Ermənistanın növbəti hərbi təcavüzdən çəkindirilməsinə dəvət edirik. Təxribatların baş verməsinə və gərginliyin artırılmasına görə məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür. Bu həm beynəlxalq hüququn yerinə gətirilməsinin tələb edilməsi, həm də əl atacağı hər hansı təxribata görə Ermənistana edilən xəbərdarlıq idi. Ona görə də BMT və onun Təhlükəsizlik Şurası dərhal müvafiq qətnamələrin yerinə gətirilməsi ilə bağlı addımlar atmalı, ATƏT-in Minsk Qrupunun fəaliyyəti substantiv danışıqlara köklənməlidir. Əks təqdirdə regionda real müharibə vəziyyəti yarana bilər ki, bu da sülhün və sabitliyin qorunmasına ciddi təhdid ola bilər".

***Ceyhun Rasimoğlu***

## Vüqar Rəhimzadə: “Nasizmin şöhrətləndirilməsi Ermənistanın dövlət siyasətidir”



“30 ildən artıqdır ədalətli həllini gözləyən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqlar prosesi işğalçı Ermənistanın qeyri-konstruktiv mövqeyinə, səsləndirdiyi qeyri-ciddi bəyanatlara, törətdiyi təxribatlara görə artıq dalana dirənib. Rəsmi Bakı ən yüksək tribunalardan bəyan edir ki, biz imitasiya naminə danışıqlarda iştirak etməyəcəyik. Möhtərəm Prezidentimiz İlham Əliyevin bu günlərdə Heydər Əliyev adına Bakı dərin özüllər zavodunda “Abşeron” yatağının dəniz əməliyyatlarının təməlqoyma mərasimi çərçivəsində yerli televiziyalara müsahibəsində, həmçinin BMT Baş Assambleyasının 75-ci Sessiyası çərçivəsində BMT-nin 75 illiyinə həsr edilmiş Yüksək Səviyyəli İclasdakı nitqində əsas diqqət yönəldilən məsələ Dağlıq Qarabağ problemi olmuşdur. Dövlətimizin başçısı bir daha Ermənistanın məqsədinin danışıqları pozmaq, ondan sonra Azərbaycanı ittiham etmək və status-kvonu dəyişməz saxlamaq olduğunu bildirərək demişdir: “Ona görə hesab edirlər ki, bunu edə biləcəklər, hesab edirəm ki, səhv edirlər. Nə qədər bunu tez anlasalar, onlar üçün bir o qədər yaxşı olacaqdır”. Bu fikirləri Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, “İki sahil” qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə SİA-ya açıqlamasında bildirib.

V.Rəhimzadə qeyd edib ki, münaqişənin həlli üçün möhkəm hüquqi baza mövcuddur. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsində Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğu, Ermənistan silahlı qüvvələrinin ərazilərimizdən qeyd-şərtsiz çıxması öz əksini tapıb. Dövlətimizin münaqişənin həlli ilə bağlı dəyişməz mövqeyi bəllidir: Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu ola bilməz. Yəni, Dağlıq Qarabağ problemi beynəlxalq hüquq normaları əsasında, ölkəmizin ərazi bütövlüyü çərçivəsində həllini tapmalıdır.

“Dövlətimizin başçısı İlham Əliyev BMT Baş Assambleyasının 75-ci Sessiyası çərçivəsində BMT-nin 75 illiyinə həsr edilmiş Yüksək Səviyyəli İclasdakı nitqində bir daha BMT-yə üzv dövlətlərin qurumun Nizamnaməsinə qoşulmaqla hər hansı bir ölkənin siyasi müstəqilliyinə və ərazi bütövlüyünə qarşı güclə hədələməkdən və gücün tətbiqindən çəkinmək öhdəliyini götürdüyünü, lakin Ermənistanın öz öhdəliklərini kobud şəkildə pozaraq Azərbaycana qarşı hərbi güc tətbiq etdiyinə diqqət yönəltmişdir”, söyləyən V.Rəhimzadə vurğulayıb ki, təəssüflər olsun ki, Ermənistan hələ də BMT Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymamaqda davam edir: “İşğalçı Ermənistanda yeni hakimiyyətin münaqişənin həllinə gətirdiyi “yeniliklər” regionda hərbi siyasi gərginliyin daha da artmasına xidmət edir. Ermənistanın baş naziri ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə aparılan danışıqların format və mahiyyətini məqsədyönlü şəkildə pozur. Onun “Qarabağ Ermənistandır” tipli aqressiv və təxribatçı bəyanatları danışıqlar prosesinə ciddi zərbədir. Paşinyan danışıqlar prosesində əsassız şərtlər irəli sürür və bu tələlər dövlətimiz tərəfindən haqlı olaraq qətiyyətlə rədd edilmişdir. Azərbaycan dövləti bir daha bəyan etmişdir ki, sülhə nail olunması üçün bizim yeganə şərtimiz Ermənistan silahlı qüvvələrinin işğal edilmiş bütün ərazilərimizdən çıxarılmasıdır. “Dağlıq Qarabağ Azərbaycandır və nida işarəsi.” Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın tərkib hissəsi, əzəli torpağı olaraq tanıyır”.

“İki sahil” qəzetinin Baş redaktoru Ermənistanın yeni hakimiyyətinin Azərbaycana qarşı hərbi əməliyyatlarda iştirak etməyə məcbur ediləcək on minlərlə mülki vətəndaşdan ibarət silahlandırılmış mülki könüllülər dəstələrinin yaradılmasını elan etməsini də xüsusi vurğulayıb. Bildirilib ki, Ermənistan Azərbaycana qarşı yeni təcavüzə hazırlaşdığını açıq-aşkar nümayiş etdirir: “Möhtərəm Prezidentimiz İlham Əliyev qeyd olunan nitqində bir daha işğalçı dövlətin əsl simasını, yeritdiyi aqressiv siyasəti dünya ictimaiyyətinin diqqətinə çatdırmışdır: “Nasizmin şöhrətləndirilməsi Ermənistanın dövlət siyasətidir. Mənfur nasist general Qaregin Njde milli qəhrəmana çevrilib. Ermənistanın rəsmi ideologiyasında “Azərbaycanofobiya” siyasəti hökm sürür. Gənc nəslə Azərbaycan xalqına nifrət aşılanır. Ermənistan bu yaxınlarda təcavüzkar və hücum xarakterli hərbi doktrina və milli təhlükəsizlik strategiyası qəbul edib. Milli təhlükəsizlik strategiyasında irqçi, şovinist və “Azərbaycanofob” fikirlər əks olunub”.

V.Rəhimzadə Ermənistanın bu antibəşəri siyasətini çəkinmədən davam etdirməsində dünyanın ikili siyasətinin rolunu xüsusi qeyd edib: “İşğalçı dövlət beynəlxalq hüququn norma və prinsiplərinə məhəl qoymur, dünya buna göz yumur. Ermənistan hərbi təxribatlarını davam etdirir, sərsəm bəyanatları ilə danışıqlar prosesini pozur, yenə dünya susur. İşğal edilmiş ərazilərimizdə süni məskunlaşdırma siyasəti həyata keçirir, Şuşada qondarma rejimin qondarma rəhbərinin guya andiçmə mərasimi təşkil olunur, dünya seyrçi mövqeyini dəyişmir. Bu kimi təxribatlara, çirkin oyunlara son qoyub, Ermənistanı danışıqlar prosesinə cəlb etmək üçün səylər göstərmək əvəzinə işğalçı dövlət silahlandırılır. Dünyanın bu gözyummaları fonunda möhtərəm Prezidentimiz İlham Əliyev BMT Baş Assambleyasının 75-ci Sessiyası çərçivəsində BMT-nin 75 illiyinə həsr edilmiş Yüksək Səviyyəli İclasda Qoşulmama Hərəkatının sədri kimi bildirmişdir ki, bu gün dünyanın hər zaman olduğundan daha çox beynəlxalq hüquqa hörmət və bunu təmin etmək iqtidarında olan səmərəli qlobal təsisatlara ehtiyacı var: “Bu baxımdan Qoşulmama Hərəkatının rolu mühüm əhəmiyyətə malikdir. Özünün tarixi boyunca Qoşulmama Hərəkatı beynəlxalq sülh və təhlükəsizliyin möhkəmləndirilməsində fundamental rol oynamış və davamlı olaraq beynəlxalq hüququn norma və prinsiplərinə ciddi riayət edilməsinə çağırmışdır. Qoşulmama Hərəkatı BMT-nin rolunun gücləndirilməsinə çox böyük əhəmiyyət verir və onun potensialından tam istifadə olunması üçün səylərin göstərilməsini vacib hesab edir”.

Baş redaktor bu mühüm məqamı da xüsusi qeyd edib ki, müasir beynəlxalq münasibətlər sistemində yeri və rolunu gündən-günə möhkəmləndirən, regionda əsl söz sahibinə çevrilən, beynəlxalq hüququn norma və prinsiplərini xarici siyasətinin prioritet istiqaməti kimi öndə saxlayan Azərbaycanın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində apardığı fəaliyyətin əsasını hücum diplomatiyası təşkil edir: “Möhtərəm Prezidentimiz İlham Əliyev hər zaman bəyan edir ki, Azərbaycan öz prinsipial mövqeyindən bir addım da olsun geri çəkilməyəcək. Prezident İlham Əliyev Heydər Əliyev adına Bakı dərin özüllər zavodunda “Abşeron” yatağının dəniz əməliyyatlarının təməlqoyma mərasimi çərçivəsində yerli televiziyalara müsahibəsi zamanı da Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı mühüm bəyanatlar səsləndirmişdir. Bu bəyanatlar işğalçı dövlətə və onun havadarlarına ciddi mesaj olmalıdır”.

# Biz hazırıq: sülhə də, müharibəyə də!



Jalə ƏLİYEVA, millət vəkili

Ermənilər, başabəla erməni siyasətçiləri, başbilənləri deyəsən, ağıllanmayacaq, heç bu niyyətdə də deyillər. Onlar bu günə kimi dəyişməyiblər, bu gedişlə dəyişəsi də deyilər. Belə gəliblər, belə də gedəcəklər. Şovinizm, rasizm, nasizm, terrorizm virusu bunların canına elə hopub, iliyinə elə işləyib ki, hələ də vaksinləri, peyvəndləri tapılmayıb...

Qəsbkarlıq, zəbt, işğal, təcavüzkarlıq, özgələrinin torpaqlarında gözü olmaq, onları ilhaq etmək, qanlar tökmək, göz yaşları axıtmaq, insanlıq dramları yaşatmaq ermənilərin “ali dəyər”lərinə çevrilib. Onlara himayədarlıq edənlər də əslində bundan öz çirkin və murdar məqsədləri, qanlı “projeləri” naminə gözəl və məharətlə istifadə ediblər, bu gün də etməkdədirlər. Çünki himayədarları olmadan onlar bir heçdirlər. Qul, nökər, vassaldırlar, forpostdurlar... Müstəqil iradələri, müstəqil qərar qəbul və icra etmə bacarıqları yoxdur, sıfırdır. Təxminən sutka yarım öncə Azərbaycan-Ermənistan sərhəddinin Tovuz bölgəsində baş verən növbəti gərginlik, növbəti erməni təxribatı da deyilənlərin əyani sübutudur. Ermənilərdən artıq ağıllı nəsə gözləməyinə dəyməz. Elə bir isterik və rəzil vəziyyətdədirlər ki, nə etdiklərini artıq bilmirlər. İyul hadisələri, iyul fiaskosu da görünür onlara dərs olmadı, onları ağıllandırmadı. Ancaq onlara dərs verməyin, onları “ağıllandırmağın” tək yolu var-hərb, müharibə! Artıq ermənilər və onları bizlərə qarşı körükləyənlər, açıq kartla oynayanlar bizlərə başqa çarə qoymurlar, bizlərə başqa variant seçməyə imkan tanımırlar.

Son bir neçə ayda illərdir davam edən, uzanan səmərəsiz danışıqlar prosesinin məhz ermənilərin və havadarlarının günahı üzündən dayanması, dayandırılması bizim üçün başqa variant tanımır. Münaqişənin tək çözüm yolunun savaşdan, müharibədən, hərbdən keçdiyinə işarə edir. Bəli, biz haqsızlığa, ədalətsizliyə, işğala, təcavüzə məruz qalan tərəf olsaq da, ancaq ötən 32 il ərzində hər zaman konfliktin sülh, danışıqlar yolu ilə həllinə üstünlük vermişik, sülhdən yana olmuşuq, bunun üçün bütün əməli addımları atmışıq və etmişik... Hətta, təxminən iki il öncə bədnam Paşinyanın danışıqlar prosesinin formatının dəyişdirilməsi, Dağlıq Qarabağ ermənilərinin danışıqlar prosesinə cəlb edilməsi yönündəki təxribatının da qabağını almışdıq, buna imkan verməmişdik. Amma... Onlar ötən dövr ərzində əllərindən gələni etdilər ki, ya format dəyişikliyi baş versin, ya da danışıqlar prosesi baş tutmasın, pozulsun. Nəticə isə göz qabağındadır. Bəli, biz müharibə tərəfdarı olmasaq da, buna-hərb variantına əl atmağa məcburuq. Biz sülh tərəfdarı olsaq da, bunu əməllərimizlə sübut etsək də, çıxış yolu hərb variantıdır. Biz hərb variantına da, hərbə də, savaşa da hazırıq. Bunun üçün bütün imkanlara və hüquqlara malikik. Kimsə öz torpaqlarımızı azad etmək hüququnu bizim əlimizdən ala bilməz. Kimsə bizi haqq savaşımızdan geri döndərə bilməz. Kimsə bizim qələbə əzmimizə, iradəmizə əngəl ola bilməz. Azərbaycan dövlətinin, Azərbaycan xalqının öz torpaqlarını işğaldan, ilhaqdan azad edtməyə gücü də, qüdrəti də yetər və yetir. Bunu hər kəs bilir və bilsin! Bu, ermənilər, Ermənistan, onun havadarları üçün son ola bilər və olacaq! Ancaq əgər acı sonlarını görmək istəmirlərsə, Azərbaycanın şərtlərinə razı olsunlar, işğal olunmuş əraziləri qeyd-şərtsiz tərk etsinlər, işğal qoşunlarını Ermənistana çəksinlər və sülhə razı olsunlar!

BMT Baş Assambleyasının 75-ci Sessiyası çərçivəsində BMT-nin 75 illiyinə həsr edilmiş Yüksək Səviyyəli İclasında Qoşulmama Hərəkatının sədri kimi çıxış edən ölkə Prezidenti cənab İlham Əliyevin də dediyi kimi, təxribatların baş verməsinə və gərginliyin artırılmasına görə məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür. “Ermənistan-Azərbaycan münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində və BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında həll edilməlidir”-deyən Azərbaycan Prezidenti bildirdi ki, təcavüzkar ritorika və təxribatlar Ermənistanın Azərbaycana qarşı yeni təcavüzə hazırlaşdığını nümayiş etdirir. Odur ki, Azərbaycan BMT-ni və beynəlxalq ictimaiyyəti Ermənistanı növbəti hərbi təcavüzdən çəkindirməyə dəvət edir. Dövlət başçımız bir daha qeyd etdi: “Ermənistanın baş naziri ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə aparılan danışıqların format və mahiyyətini məqsədyönlü şəkildə pozur. Onun “Qarabağ Ermənistandır” bəyanatı danışıqlar prosesinə ciddi zərbədir. O, danışıqlar prosesində əsassız şərtlər irəli sürür. Onun Azərbaycana qarşı irəli sürülmüş qəbuledilməz “yeddi şərti” tərəfimizdən rədd edilmişdir. Sülhə nail olunması üçün bizim yeganə şərtimiz var. Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal edilmiş bütün ərazilərindən çıxarılmalıdır”. Bəli, biz sülh istəyirik, sülh tərəfarıyıq, biz ədalət, ədalətin bərpasını istəyir və tələb edirik. Bu olmayacaqsa, bu olmadıqda isə yol, variant hərbdir. Biz hazırıq!

## Dövlət Təhlükəsizliyi Xidməti düşmənin təxribatları ilə əlaqədar əhaliyə müraciət edib



Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti (DTX) Ermənistan-Azərbaycan qoşunlarının təmas xəttində düşmənin hərbi təxribatlarının intensivləşməsi ilə əlaqədar əhaliyə müraciət edib.

AZƏRTAC DTX-nin saytına istinadla xəbər verir ki, müraciətdə Ermənistan-Azərbaycan qoşunlarının təmas xəttində hərbi təxribatların intensivləşməsi ilə eyni vaxtda düşmən tərəfinin sosial şəbəkə resurslarında saxta azərbaycanlı adlarından və Azərbaycan dilindən istifadə etməklə cəbhə bölgələrində əhali arasında gərginlik və çaxnaşma yaratmaq, eləcə də Silahlı Qüvvələrimizin hərbi bölmələrinin fəaliyyəti, əməliyyat niyyətləri, yerdəyişmələri və s. barədə məlumatlar toplamaq məqsədilə davamlı fəaliyyət göstərdiyi bildirilib.

Belə hallarla əlaqədar Dövlət Təhlükəsizliyi Xidməti Azərbaycan vətəndaşlarını ayıq-sayıq olmağa, düşmən təxribatlarına uymamağa, hərbi sirr təşkil edən və ordumuzun döyüş qabiliyyətinə, yerli əhalinin təhlükəsizliyinə zərər vura biləcək məlumatları yaymamağa çağırır.

“Anonim profillərlə edilmiş bu qəbil müraciətlərə, sosial şəbəkə yazışmaları və mesencerlərlə ötürülən məlumatlara reaksiya verməmək, həmin məlumatları tanış və qohumlar arasında paylaşmamaq tövsiyə edilir. Cəbhədəki vəziyyətlə bağlı yalnız ölkəmizin rəsmi dövlət qurumlarının məlumatlarına istinad edilməsi zəruridir. Saxta adlar və müxtəlif kommunikasiya kanalları ilə Azərbaycan vətəndaşlarına ünvanlanmış kəşfiyyat-təxribat xarakterli müraciətlərlə əlaqədar, Dövlət Təhlükəsizliyi Xidmətinin rəsmi internet səhifəsi (www.dtx.gov.az), əlaqə telefon (+99412 405 99 99) və qaynar xətt (+99412 1656) nömrələri, habelə DTX-nin rəsmi sosial şəbəkə resursları (https://www.facebook.com/-DTXAzerbaijan, https://www.instagram.com/azerbaijandtx vəhttps://twitter.com/DTX_Azerbaijan), WhatsApp və Telegram (+994 77 405 99 99) vasitəsilə məlumat verilməsi xahiş olunur.

Unutmayaq ki, hər hansı məsuliyyətsiz davranışdan çoxlu sayda hərbi qulluqçumuzun və mülki şəxsin həyat və sağlamlığı təhlükə altına düşə bilər”, - deyə DTX-nin məlumatında qeyd olunub.

# Ermənilәri qorxudan faktor: Azərbaycan-Türkiyə hərbi birliyi

***Ermənistanın baş naziri Nikol Paşinyanın Qarabağ münaqişəsi fonunda məsuliyyətsiz davranışları, Azərbaycanı müharibəyə təhrik etməsi cəhdləri, erməni hərbi birləşmələrinin cəbhənin təmas xətlərində silahlı təxribatçılıq əməllərini davam etdirmələri mövcud vəziyyətin daha da gərginləşməsinə səbəb olmaqdadır. Əbəs deyil ki, Azərbaycan Prezidenti İlham Əliyev son günlər səsləndirdiyi bəyanatlarında bütün məsliyyətin Ermənistanın siyasi-hərbi rəhbərliyinin üzərinə düşəcəyini vurğulayaraq, beynəlxalq aləmə çağırışlar edir, sülh danışıqlarına xələl vuran, danışıqlardan qaçan Ermənistanın Azərbaycan üçün başqa yol qoymadığını bildirir. Məhz sərt, qətiyyətli bəyanatlardan sonra erməni ictimai rəyi ölkələrinin başına gələcəyi fəlakətdən təlaşlanır, müharibənin baş verəcəyi halda hansı aqibətlə qarşı-qarşıya qalacaqları ətrafında necə deyərlər, baş sındırırlar.***

## Sasun Mikaelyan: "Ermənistan yalnız Azərbaycanla deyil, həm də Türkiyə ilə müharibə aparır"









### Türkiyədən növbəti sərt bəyanatlar - XİN: "Can Azərbaycanın haqlı mübarizəsində hər zaman yanındayıq", MN: "Ermənistan odla oynamağı dərhal dayandırmalıdır!"

Çünki burada daha bir fakt Azərbaycanın hərbi-iqtisadi və strateji tərəfdaşı, qardaş ölkə - Türkiyənin birmənalı və birtərəfli dəstəyi amili üzərində cəmləşir. İstər iyul hadisələri zamanı, istərsə də bugünlərdə Tovuzda baş verən növbəti silahı təxribatdan dərhal sonra Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu "Twitter"də Azərbaycan xalqına təxribat zamanı şəhid olan hərbi qulluqçumuza görə başsağlığı verib. "Ermənistanın hərbi təcavüzü nəticəsində şəhid olan Azərbaycan Ordusunun müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Məmmədov Elşənə Allahdan rəhmət, qardaş Azərbaycan xalqına və şəhidin ailəsinə səbir diləyirəm", yazan Çavuşoğlu əlavə edib ki, Ermənistan çirkin əməllərindən əl çəkməlidir və qardaş ölkə daim bizim yanımızdadır: "Ermənistanı hücuma son verərək ağlını başına yığmağa çağırıram. Can Azərbaycanın haqlı mübarizəsində hər zaman yanındayıq".

Qeyd edək ki, Türkiyənin Milli Müdafiə Nazirliyi də kiçik çavuş Məmmədov Elşən Əli oğlunun şəhid olması ilə bağlı başsağlığı verib və Ermənistanın təxribatçılıq əməllərini bu ölkə üçün pis nəticələr verəcəyini bəyan edib.

SİTAT: "Dağlıq Qarabağı qanunsuz olaraq işğal edən Ermənistan indi də Tovuz istiqamətində atəşkəsi pozaraq qəhrəman Azərbaycan əsgərimizi şəhid edib. Şəhidimizə Allahdan rəhmət, bütün azərbaycanlı qardaşlarımıza başsağlığı diləyirik! Ermənistan odla oynamağı dərhal dayandırmalıdır!"

### Sərsəm erməni düşüncəsi: "Bir tərəfdən Rusiyanın kömək etməli olduğunu deyən ermənilər, digər tərəfdən ruslara bel bağlamadıqlarını bildirirlər"

Beləliklə, ermənilər kəskin qorxu içindədirlər və bir tərəfdən müharibəyə təhrik xarakterli bəyanatlar verir, digər tərəfdən isə qoorxduqlarını gizlətmirlər. Ermənistanın hərbiləşdirilmiş "Yerkrap" təşkilatının sədri, hakim "Mənim addımım" fraksiyasının deputatı Sasun Mikaelyan jurnalistlərlə söhbətində bildirib ki, Ermənistan yalnız Azərbaycanla deyil, həm də Türkiyə ilə müharibə aparır. Düşdükləri ağır vəziyyətdən çıxış yolları axtaran erməni deputat əlavə edib ki, müharibə baş verərsə, ehtiyatlı olmaq lazımdır. O, bu dəfə həyasızcasına Rusiyanın Ermənistana kömək etməli olduğunu bildirib. Halbuki, hakim fraksiyanın təmsilçisi nədənsə Nikol Paşinyanın anti-Rusiya bəyanatlartını unudub. Dara düşəndə isə Rusiya faktoru yada düşür.

Beləliklə, "Rusiya Ermənistana kömək etməlidir", deyən Sasun Mikaelyan belə məqamlarda rusların "iplərinin üzərinə odun yığmağın" təhlükəli olduğunu da bildirib, hətta bunun üçün ermənilərin "ağıllı və uzaqgörən siyasət" aparmalı olduqlarını deyib. Maraqlıdır ki, erməni siyasətçi qondarma erməni soyqırımı məsələsini ortaya ataraq, guya vaxtilə rusların türklərə silah verdiyini, türklərin isə "1,5 milyon" ermənilәri "qətlə yetirdiklərini" ənənəvi erməni "məzlumluğu" ilə xatırladıb.

### Mikaelyan sübut edir ki, Azərbaycan dövləti öz ərazilərini işğaldan azad etməsi üçün hər an müharibəyə hazırdır

Mikaelyan müharibə mümkünlüyünün 1990-cı ildən hazırkı vaxta qədər qaldığını deyib: "Bizim xalq deyir: dördgünlük müharibə, Tavuş hadisələri... Müharibə bitməyib... Müharibə 90-cı illərdən başlayıb və bugünə qədər davam edir. Gəlin bu məsələləri bir-birindən ayırmayaq".

Erməni deputatı Azərbaycan Prezidenti İlham Əliyevin Qarabağ danışıqlarının erməni tərəfinin günahı səbəbindən dayandırılılması bəyanatına da münasibətini bildirib və deyib ki, Ermənistan Bakının cəhdlərinə maksimal şəkildə müqavimət göstərməlidir. Məhz bu kimi düşüncə ilə Mikaelyan sübut edir ki, Azərbaycan dövləti öz ərazilərini işğaldan azad etməsi üçün hər an müharibəyə hazırdır və öz qətiyyətli addımını atacaq. Ağır nəticələrə görə isə məsuliyyəti əlbəttə ki, erməni hakim siyasi dairələri daşıyacaq.

***Rövşən RƏSULOV***

# “İki sahil” qəzeti Neftçilər Gününə həsr olunmuş xüsusi buraxılış hazırlayıb

***20 sentyabr 1994-cü il müasir müstəqil Azərbaycan dövlətinin tarixinə mühüm hadisə kimi daxil oldu. Həmin gün ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış və bütün dünyada “Əsrin müqaviləsi” adı ilə tanınan neft sazişi imzalandı. Bu müqavilə Azərbaycanın neft tarixinin şanlı səhifəsini açdı.***

Məhz müasir, müstəqil Azərbaycan dövlətinin qurucusu, yeni neft strategiyasının müəllifi, ulu öndər Heydər Əliyevin 16 avqust 2001-ci il tarixli Fərmanı ilə 20 sentyabr Neftçilər Günü kimi təsis olundu və həmin vaxtdan başlayaraq hər il bu bayram dövlətimizin düşünülmüş və məqsədyönlü siyasəti, neftçilərimizin fədakar əməyi sayəsində əldə edilən yüksək sosial-iqtisadi göstəricilərin fonunda böyük əhval-ruhiyyə ilə qeyd edilir.




Həmin tarixdən bizi 26 illik zaman ayırır. “İki sahil” qəzetinin Neftçilər Gününə həsr olunmuş 100 səhifəlik xüsusi buraxılışında Azərbaycan neft-qaz sənayesinin 26 ildə keçdiyi inkişaf yolunun təhlili aparılıb, ulu öndər Heydər Əliyevin müəllifi olduğu neft strategiyasının uğurla həyata keçirilməsinə davamlı töhfələr verən SOCAR-ın və onun strukturlarının gördüyü işləri əks etdirən maraqlı yazılar dərc edilib, rəngli şəkillər və yüksək poliqrafik tərtibat xüsusi diqqət çəkir. Xüsusi buraxılışın üz qabığında cari ildə enerji sektorunda qazanılan uğurlardan biri olan Heydər Əliyev adına Bakı dərin özüllər zavodunda “Qarabağ” dayaq blokunun dənizə yola salınması mərasimi çərçivəsində yerli televiziyalara verdiyi müsahibəsində dövlətimizin başçısı İlham Əliyevin xüsusi qeyd etdiyi bu fikirlər öz əksini tapıb: “Azərbaycan öz doğma torpağına, Qarabağ torpağına qayıdacaq. Bizim ərazi bütövlüyümüz tam bərpa ediləcək, necə ki, bu gün biz vaxtilə tərk edilmiş “Qarabağ” yatağına qayıdırıq, eyni qaydada biz doğma Qarabağ torpağımıza da qayıdacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!”.

Neft strategiyasının uğurla həyata keçirilməsində neftçilərin əməyi dövlətimiz tərəfindən hər zaman yüksək dəyərləndirilib. Hər il 20 sentyabr -Neftçilər Günü ərəfəsində neçə-neçə qabaqcıl neftçinin yüksək dövlət mükafatları ilə təltif edilməsi də cəmiyyətimizin avanqard qüvvəsi olan neftçilərin əməyinə verilən qiymətin, onlara göstərilən diqqətin bariz nümunəsidir. Xüsusi buraxılışda dövlət başçısı İlham Əliyevin 19 sentyabr 2020-ci il tarixli müvafiq sərəncamları, həmçinin neft və qaz sənayesinin inkişafında xüsusi xidmətləri olan şəxslərin SOCAR-ın “Fəxri neftçi” döş nişanı ilə təltif edilməsi öz əksini tapıb.

Xüsusi buraxılışda SOCAR-ın prezidenti Rövnəq Abdullayevin Neftçilər Günü münasibətilə yer alan təbrikində bildirilir ki, müstəqil Azərbaycanın inkişaf və tərəqqisi ulu öndər Heydər Əliyevin müdrik və uzaqgörən siyasətinin bəhrəsi olan yeni enerji strategiyasının uğurları ilə sıx bağlıdır. Bu gün ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm enerji layihələrinə imza atan ölkəmiz davamlı və dinamik sosial-iqtisadi inkişaf yolunda inamla addımlayır. Neft-qaz sənayesinin uğurları qeyri-neft sektorunun inkişafına da güclü təkan verərək, iqtisadi yüksəlişin, xalqın artan rifahının möhkəm təminatına çevrilmişdir.

Təbrikdə bu reallıq da öz əksini tapıb ki, “Əsrin müqaviləsi”nin ərsəyə gəlməsində, eləcə də dünya neft sənayesinin inkişaf tarixində müstəsna yer tutan Azərbaycanın təşəbbüsü və yaxından iştirakı ilə reallaşan digər qlobal enerji layihələrinin uğurlarında neftçilərin əvəzolunmaz payı vardır. Dövlətimiz çətin və şərəfli neftçi əməyini daim yüksək qiymətləndirir və dərin etimad göstərir. Bu əminlik də ifadə olunur ki, neftçilərimiz bu yüksək etimadı doğrultmaq və Azərbaycanın neft-qaz sənayesi salnaməsinə yeni-yeni parlaq səhifələr yazmaq üçün bundan sonra da səylərini əsirgəməyəcək, Vətənimizin, xalqımızın daha işıqlı gələcəyi naminə əzmlə çalışacaq, ölkəmizin sosial-iqtisadi yüksəlişinə dəyərli töhfələrini davam etdirəcəklər.

SOCAR-ın prezidenti Rövnəq Abdullayevin “SOCAR prioritetlərini dövrün çağırışlarına uyğun seçir” sərlövhəli yazısında qeyd olunur ki, bu gün beynəlxalq enerji sektorunda aparıcı tendensiyalar dünya iqtisadiyyatında yüksək texnologiyaların inkişaf dinamikası ilə müəyyənləşir. Qədim tarixə, zəngin və şərəfli ənənələrə malik Azərbaycanın neft-qaz sənayesi də bu tendensiyalardan kənarda qalmır, fəaliyyətini zamanın tələblərinə uyğun uyğunlaşdıraraq, modernizasiya və qloballaşma çağırışları ilə uzlaşır. Bu çağırışlar enerji sektoru qarşısında yeni məqsəd və vəzfələr qoyur, prioritet sahə olan rəqəmsal texnologiyaların inkişafını, bütövlükdə iqtisadi sistemə, o cümlədən idarəetmə və tənzimləmə sisteminə tətbiq edilməsini labüdləşdirir.

SOCAR-ın birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadənin “Neftçilər Günü ulu öndər Heydər Əliyevin Azərbaycan neftçilərinə böyük hədiyyəsidir” yazısında müqavilənin imzalanmasına qədər keçilən yoldan, aparılan danışıqlardan, həmçinin “Əsrin müqaviləsi”nin iqtisadi və siyasi əhəmiyyətindən geniş bəhs olunur. Məqalədə qeyd olunur ki, 20 sentyabr günü Azərbaycanın iqtisadiyyatında, ölkəmizin iqtisadi-siyasi və sosial həyatında parlaq bir səhifə açmış Xəzərin Azərbaycan sektorunda yerləşən “Azəri-Çıraq-Günəşli” yataqlarının birgə işlənməsi üzrə imzalanmış “Əsrin müqaviləsi”nə və Ümummilli Liderin neft-qaz strategiyasını var qüvvə ilə həyata keçirən neftçilərin əməyinə verilən yüksək dəyərin rəmzi oldu.

Xüsusi buraxılışı vərəqlədikcə SOCAR-ın ayrı-ayrı sahələrdə tətbiq etdiyi yeniliklər, təcrübələr, qazandığı uğurlar ətraflı şəkildə ictimaiyyətə çatdırılır. Çoxsaylı məqalələrdə Neftçilər Günü ilə bağlı son bir ildə görülən işlərin qısa hesabatı və növbəti ilin hədəfləri açıqlanır.

Xüsusi buraxılışın son səhifəsində əksini tapan ulu öndər Heydər Əliyevin “Azərbaycanın böyük neft və qaz sərvətlərinə malik olması bizim xalqımızın xoşbəxtliyidir və bu gün üçün, xalqımızın yaxşı yaşaması üçün, ölkəmizin inkişafı üçün ən əsas amildir” fikri Azərbaycanın malik olduğu təbii resursların nəinki bugünümüz, hələ qarşıdakı onilliklər boyu Azərbaycanın daha da inkişafına, insanların sosial müdafiəsinin gücləndirilməsinə, ölkəmizin beynəlxalq münasibətlər sistemində yeri və rolunun artmasına yönələn bir çağırışdır. Bildirilir ki, hər bir dövrün, zamanın çağırışlarını yüksək səviyyədə cavablandıran Azərbaycanın gələcəyə hesablanmış inkişaf strategiyası qarşıdakı illərin aydın mənzərəsini yaradır.

## “Heydər Əliyev Fondunun fəaliyyəti çox əhəmiyyətlidir, eyni zamanda, bir nümunədir”



“Azərbaycan Respublikasının birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi altında Heydər Əliyev Fondunun həm ölkə daxilində, həm də xaricdəki fəaliyyəti çox əhəmiyyətlidir, eyni zamanda, bir nümunədir”. Bunu SİA-ya millət vəkili Musa Qasımlı deyib. Deputatın sözlərinə görə, Heydər Əliyev Fondunun xətti ilə ölkəmizdə son illərdə yeni məktəb binaları tikilib, müasir avadanlıqlarla təchiz olunub, məktəbəqədər təhsil müəssisələri, uşaq bağçaları istifadəyə verilib: “Çoxlu sosial layihələr həyata keçirilib. Bütün bunların hamısı Azərbaycan vətəndaşının daha rahat həyat şəraitinin təmin edilməsi məqsədi üçün həyata keçirilir.

Məhz onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyəti nəticəsində ölkəmizdə təhsilimizin inkişafı üçün zəruri olan ilk ciddi addımlar atılıb. Tariximizdə heç vaxt olmadığı qədər yeni məktəb binaları tikilib. Hətta bir zamanlar çətin gedilən ucqar dağ kəndlərində indi müasir tipli, hər cür avadanlıqla təchiz edilmiş məktəblər mövcuddur. Heç şübhəsiz, bu, Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun xidmətidir. Mehriban xanım Əliyeva Azərbaycanda məktəbə qədər təhsilə xüsusi qayğı göstərir, fondun fəaliyyəti nəticəsində bu gün Azərbaycanda uşaq bağçaları tikilir, köhnələri bərpa edilir. Diqqəti cəlb edən cəhətlərdən biri də budur ki, bir vaxtlar uşaq evləri baxımsız halda idi, indi isə Azərbaycanda olan uşaq evləri digər ölkələrdəki uşaq evlərindən qat-qat yaxşıdır”.

## “Prezident BMT tribunasından bir daha erməni hakimiyyətinin cinayətkar mahiyyətini açıb”



“Cənab Prezidentin BMT-dəki çıxışında dünya ictimaiyyətin diqqətinə çatdırdığı əsas məsələlərdən biri Ermənistanın hərbi siyasi rəhbərliyin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişənin danışıqlar yolu ilə həll olunmasına nöqtə qoyan- “yeni ərazilər uğrunda yeni müharibə”, mülkü vətəndaşlardan ibarət silahlanmış mülki könüllü dəstələrin yaradılmasının elan edilməsi, təcavüzkar siyasətin davam etdirilməsi və faşizmin qəhrəmanlaşdırılması olmuşdur”. Bunu SİA-ya açıqlamasında Milli Məclisin üzvü Azər Badamov deyib. Deputat bildirib ki, cənab Prezident BMT tribunasından bir daha erməni hakimiyyətinin cinayətkar mahiyyəti açıb: “Qeyd etmək istəyirəm ki, ermənilərin mütəmadi təxribatlar və diversiyaların reallaşdırılmasına çalışması və regionda təhlükəsizliyin pozulmasına cəhd etdiyini ifadə etməklə baş verə biləcək hər hansı hərbi gərginliyə görə məsuliyyəti Ermənistan hakimiyyəti daşıyır”.

A.Badamov vurğulayıb ki, ölkə Başçısı Ermənistanın BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnaməsinin bu günə qədər icra etmədiyini bildirmiş və BMT öz nizamnaməsinə uyğun dünyada beynəlxalq hüququn təmini və ədalətin bərpası üçün fəaliyyətini yeni dövrün çağırışlarına uyğunlaşdırılmasının vacibliyini qeyd etmişdir: “Ümumilikdə cənab Prezident öz çıxışı ilə dünya səviyyəli lider olduğunu bir daha sübut etdi”.

## “Azərbaycan müxtəlif mədəniyyətlərin, dinlərin məkanı olub”



“Bildiyimiz kimi, multikulturalizm və tolerantlıq məsələsi sadəcə teoriya məsələsi deyil, bu, həm də praktikada yaşanmış təcrübələrə əsaslanmış bir məsələdir. Ona görə də hansı xalqda ki, bu təcrübələr yaşanıbsa, praktikada bunlar tətbiq olunubsa həmin xalqlarda onun praktikasına əsaslanan teoriya meydana gəlir”. Bunu SİA-ya açıqlamasında Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov deyib.

İcraçı direktorun sözlərinə görə, Azərbaycan da müxtəlif mədəniyyətlərin, dinlərin məkanı olub: “Azərbaycan ərazisində tarixən müxtəlif mədəniyyətlər mövcud olub, qurulub. Əsrlər boyu qədim Azərbaycan dövlətindən indiyədək olan ənənələr içərisində həmin ənənə getdikcə inkişaf etmişdir. Artıq günümüzdə Azərbaycan dövləti müstəqilliyini elan etdikdən sonra tarixən mövcud olan bu mirasa sahib çıxmış və bu mirası bu gün daha da inkişaf etdirərək dövlət siyasəti səviyyəsinə gətirmişdir. Bu tarixi mirasa söykənən həmin siyasət sadəcə olaraq ölkə ərazisində tətbiq olunmur. Bilirsiniz ki, tarixən bizdə mövcud olan və bu gün də dövlət siyasətinin mərkəzində yer alan həmin multikulturalizm və tolerantlıq ənənələrimiz dünyaya da geniş təbliğ olunur. Azərbaycan dövləti, aidiyyatı qurumları tərəfindən dünyanın mədəniyyət mərkəzlərində, mədəniyyət paytaxtlarında ölkəmiz bu dəyərlərin təbliği ilə yaxından məşğul olur. Demək olar ki, dünyanın bir çox əsas elm, mədəniyyət mərkəzlərində Azərbaycan nümunəsinin tanıdılmasına, təbliğinə böyük çaba sərf edilir”.

***Ceyhun Rasimoğlu***

## BQXK Dilqəm Əsgərov və Şahbaz Quliyevə növbəti dəfə baş çəkib



Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) nümayəndələri Dağlıq Qarabağ münaqişəsi nəticəsində saxlanılan şəxslərə növbəti dəfə baş çəkib. Komitənin Azərbaycan nümayəndəliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri İlahə Hüseynova SİA-ya bildirib ki, təmsil etdiyi qurumun nümayəndələri aprel, may və iyun ayları ərzində Dağlıq Qarabağ münaqişəsi nəticəsində saxlanılan şəxslərə bir daha baş çəkib:

“Münaqişə nəticəsində saxlanılan şəxslərə mütəmadi baş çəkməkdə davam edirik. Aprel, may və iyun aylarında biz, Dağlıq Qarabağ münaqişəsi nəticəsində saxlanılan şəxslərə baş çəkmişik. Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK) mandatına əsasən, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar saxlanılan şəxslərə olan rəftarı və onların saxlanma şəraitini monitorinq edir və həmçinin, bu şəxslərə ailə əlaqələrini saxlamaqda köməklik göstərir”.

# Qlobal mafiyanın trilyonluq biznesi: Orqan ticarətinin dəhşətləri

*Orqanların çıxarılması üçün insan qətl edilməlidir, çünki cəsəddən götürülən orqanlar heç nəyə yaramır*

**Ötən il dünyada orqan köçürülməsi əməliyyatlarının sayı 30% artıb. Hər il təxminən 120 min orqan transplantasiyası həyata keçirilir. Bu, rəsmi rəqəmlərdir. Qeyri-rəsmi rəqəmlər isə dəfələrlə böyükdür və bu ticarətin qlobal dövriyyəsi trilyonlarla ölçülür. Bir müddətdir ki, Azərbaycanda da orqan transplantasiyası haqda yeni qanunun qəbulu məsələsi yenidən aktuallaşıb. Söhbət ölüm diaqnozu qoyulan şəxslərdən orqanların götürülməsi ilə bağlıdır. Müvafiq qanun layihəsi parlamentə təqdim olunub və müzakirəsi aparılır. Lakin bu mövzuda fikirlər fərqlidir. İlk baxışda humanist bir addım kimi görünsə də, əslində, heç də elə deyil.**

## Məsələnin alt qatlarında daha dəhşətli faciələr yatır

Düzdür, kimisə xilas etmək üçün kiminsə orqanını bağışlaması humanist hərəkətdir. Lakin burada çox mürəkkəb məsələlər var. Əvvəla, tədqiqatçıların rəyinə görə, tam ölüm zamanı heç bir orqan götürülüb köçürülə bilmir, çünki o orqan yararsız olur - göz qişasından başqa. Əgər müvafiq qanun qəbul olunsa, bu halda həkimlər beyin ölümü diaqnozu qoyduqları xəstənin hələ tam ölməmişkən orqanlarını götürə bilərlər. Halbuki, adam hələ həyatdadır. Bundan qlobal orqan mafiyası necə lazımdır istifadə edir və orqan ticarətinin dövriyyəsi trilyonlarla ölçülür.

Çox zaman bunu donora "beyin ölümü" diaqnozu qoymaqla edirlər. Beyin ölümü və digər bu tip tibbi diaqnozları təsdiq edən elmi mərkəzlər də həmin qlobal mafiyanın nəzarətindədir. Üstəlik, beyin ölümünün təyin olunma mexanizmi və bunun tam ölüm sayılması barədə dünya elmi tibb mərkəzləri həmfikir deyil. Son illərdə "beyin ölümü" faktının əleyhinə daha çox elmi faktlar ortaya qoyulur.

Beyin ölümü belə insanın tam ölümü demək deyil. Bu halda sağ insanın orqanların götürülməsi xəstənin icazəsi olmadan, yəni, onu öldürərək alınma halıdır. Beyin ölümü diaqnozundan sonra sağalıb yaşayan minlərlə adam var dünyada. Bu halda beyin ölümü diaqnozu qoyularaq şəxsin orqanlarının zorla götürülməsi cinayətdir. Yəni, hətta birini xilas etmək naminə belə digərini öldürmək cinayət faktıdır. Şəxs xəstəliklə bağlı şüurunu itirmiş haldadırsa, hətta ailə üzvlərinin belə buna icazə verməyə ixtiyarı, hüququ yoxdur, olmamalıdır. Yalnız bədən sahibi öz rəsmi vəsiyyəti ilə buna icazə verərsə, qəbul etmək olar, o da buna məcbur olması və ya bundan pul qazanmaq fikri haqda şübhələr olmadıqda. Öldükdən sonra isə, dediyim kimi, heç bir orqanı istifadə eləmək olmur, yalnız göz qişasından başqa.

## Orqan ticarəti müharibələrə və terrora rəvac verir

Bəzi ölkələrdə bu qanunun qəbul edilməsi orqan qaçaqçılığına və ticarətinə vüsət verib. Hətta bəzi müharibələr, məhz bu məqsədlə törədilir. Müharibə regionlarında, yoxsul ölkələrdə böyük miqyasda cinayətlər törədilir. Misal üçün, Suriyada, Liviyada, İraqda, Əfqanıstanda, Ukraynada, Misirdə... yüz minlərlə uşağın və girov götürülmüş digər sağlam insanların orqanları



zorla alınır və varlı ölkələrə satılır.

Dünyanın ən dəhşətli terror təşkilatı İŞİD də bu işlə fəal məşğul olur və əsir aldığı şəxslərin orqanlarını Qərb ölkələrindəki varlılara satır. Bəzən isə, müharibə bölgəsindəki yoxsul insanlar özləri könüllü olaraq orqanlarını İŞİD-ə satırlar. Bu əməliyyatlardan ildə on milyonlarla pul qazanır.

Ümumən, Qərbin Suriyada törətdiyi terror və müharibədən sonra bu ölkədə orqanları sağ ikən çıxarılıb öldürülən insanların sayı yüz minlərlə ölçülür. Statistikaya görə, təkcə orqanları çıxarıldıqdan sonra cəsədləri dəfn olunmaq üçün yenidən Suriyaya göndərilənlərin sayı 60 mindən çoxdur. Eyniilə, Ukraynada, Əfqanıstanda, İraqda və Liviyada da vəziyyət belədir.

## Kasıb müsəlmanlardan varlı qərblilərə gedən orqanlar

Qəsdən müharibə törədilən Yaxın Şərq ölkələrindən orqanlarının çıxarılması məqsədilə canlı insan daşındığı ölkələrin içində ABŞ, İsrail və Qərbi Avropa ölkələri ilk yerlərdədir.

Bir az da geniş kontekstdən baxsaq, terror, müharibə törədilmiş kasıb Şərq ölkələrində sağlam insanların orqanları zorakı və kütləvi şəkildə götürülüb qərb ölkələrində istifadə olunur. Kasıbların qurban verilməsi səbəbinə varlılar həyat qazanır. İnsana maddi qiymət qoyulur və o, hissə-hissə satılır. Bundan rəzil hərəkət və bundan böyük cinayət ola bilməz. Faktiki olaraq, dünyada orqan köçürülməsində vəziyyət belədir- varlılar alıcı, kasıblar donor rolunu oynayır! Bu da sosial-psixoloji, mənəvi böhranın son həddi, insan cəmiyyətinin ən rəzil sifətidir.

"Bloomberg"in yayımladığı informasiyalara əsasən, 2009-cu ildə orqanlarının çıxarılması üçün İsrailə göndərilən 25 min azyaşlı uşağın içərisində Braziliya, Moldova, Türkiyə, Özbəkistan, Ukrayna, Filippin və... Azərbaycan vətəndaşlarının olduğu təsdiq olunub.

İtkin düşənlərin çoxunun orqan mafiyası tərəfindən qaçırıldığı haqda ciddi şübhələr var. Amerikada son 20 ildə çoxu uşaq olmaqla 400 min nəfərin itkin düşərək yoxa çıxması çox ciddi reaksiya doğurub. Son 10 ildə Azərbaycanda itkin düşənlərin sayı 10 min nəfərdən çox olub. Bu şəxslərin necə birdəfəlik yoxa çıxması çox ciddi şübhələr yaradır. Hərdənbir DTX və DİN-in Mütəşəkkil Cinayətkarlığa qarşı Mübarizə Baş idarəsi tərəfindən orqan ticarəti ilə məşğul olan mütəşəkkil cinayətkar dəstələr aşkar olunur və onlar haqda istintaq aparılır.

## İnsan orqanlarına bazar malı kimi qiymət qoyulub satılır

Bu biznesin qlobal dövriyyəsi trilyonlarla ölçülür, qurbanları isə milyonlarla. Bəs niyə müasir insanların öz orqanları sıradan çıxır və donor orqana möhtac qalırlar? Həkimlərin fikrincə, bu, artıq həyat tərzi ilə bağlı məsələdir.

Həkim-konsultant Aynurə Məmmədova deyir ki, qeyri-təbii qidalanma, qeyri-sağlam həyat tərzi, zərərli vərdişlər insanların orqanlarını sıradan çıxarır: "Bu səbəblərin aradan qaldırılması ilə məşğul olmaq lazımdır. Biz bunu araşdırmalıyıq ki, niyə orqan çatışmazlığı yaranır və bunun qarşısını almaq üçün çalışmalıyıq. İnsanları sağlam həyat tərzinə, sağlam qidalanmağa, yeri gəlsə, məcbur etmək lazımdır. Qida təhlükəsizliyi maksimum təmin olunmalı, zərərli vərdiş və texnologiyalara qarşı mübarizə aparılmalıdır".

Həkim əlbəttə, haqlıdır. Yoxsa, kimsə heç bir qaydaya riayət etmədən yaşayır, kefini sürür, nəticədə orqanı sıradan çıxır, kimsə də insan kimi sağlam həyat tərzi sürür, sağlam orqanı olur, sonra o varlı və harın şəxsin kefcil və bivec həyat tərzinin ağır nəticələrinin əvəzini bu kasıb olan insan ödəyir. Burda ədalət hardadır?

Yalnız bir halda bunu etmək olar. Bir insan yalnız özü şəxsən və çoxsaylı şahidlərin iştirakı ilə öz orqanını kiməsə verə bilər, misal üçün, yaxın adamını, ya da hansısa bir şəxsi xilas etmək üçün heç bir pul tələb etmədən. Orqan bir şərtlə verilə bilər ki, o, bərpa olunan olsun, şəxsin ölümünə, əlilliyinə səbəb olmasın. Əks halda, bu qərar orqan ticarətinin çiçəklənməsinə stimul yaradacaq ki, bu da həyatda ən ağır cinayətlərdən biridir.

Orqan transplantasiyası haqda qanunun qəbulu yalnız tibb elmi tam ölmüş insanın orqanlarından istifadə edə biləcək səviyyəyə çatdıqda reallaşa bilər. Əks halda cinayətkarlığı təbliğ və təbliğ edən bir qanun olacaq. Ona görə də, müvafiq qanun layihəsini hazırlayanlar, onu dəstəkləyənlər, guya "bu, humanistlikdir" kimi bəhanələrlə müdafiə edənlər yaxşı düşünməlidirlər.

*Elçin Bayramlı*

## Bu il daha iki DOST Mərkəzi açılacaq

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Anar Əliyevin rəhbərliyi ilə onlayn iclas keçirilib. Bu barədə SİA-ya Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi İctimaiyyətlə əlaqələr və kommunikasiya departamentindən məlumat verilib. İclasda Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyinin İdarə Heyətinin sədri Fərid Məmmədov, sədr müavinləri, müvafiq departament və şöbələrin rəhbərləri, o cümlədən DOST mərkəzlərinin memarlıq, planlaşdırma və tikinti işlərini həyata keçirən podratçı təşkilatların nümayəndələri iştirak ediblər.



İclasda Bakının Binəqədi və Nərimanov rayonlarını əhatə edəcək 4 saylı Bakı DOST Mərkəzi, Abşeron, Bərdə, Sumqayıt, Quba və Sabirabad DOST mərkəzləri ilə bağlı məlumatlar verilib. Podratçı şirkətlərin nümayəndələri işlərin icra vəziyyəti ilə bağlı hesabat veriblər. Qeyd olunub ki, bu ilin sonuna qədər 4 saylı Bakı DOST Mərkəzi və Abşeron DOST Mərkəzinin açılışı planlaşdırılır. Bu səbəbdən də işlərin plana uyğun olaraq icrasının zəruri olduğu vurğulanıb. İclas mövcud vəziyyətin və qarşıda duran məsələlərin müzakirəsi ilə davam etdirilib.

## "Sosial şəbəkə iştirakçıları diqqətli olmalıdırlar"

"Müşahidələrimiz onu deməyə əsas verir ki, ermənilər hər iki cəbhədə eyni vaxtda fəallaşırlar. Ordu cəbhədə təxribat törədən kimi sosial şəbəkələrdəki adamlar da fəallaşmağa başlayırlar. Bəzən sosial şəbəkələrdəki ermənilərin üzərinə daha ağır yük düşür, onlar təcavüzkar ordunun təxribatlarına haqq qazandırmalı olurlar. Yalan danışmaq, ağa qara demək, faktları təhrif etmək erməni təbliğatının əsasını təşkil edir". Bunu SİA-ya Jurnalist Araşdırmaları Mərkəzinin sədri Seymur Verdizadə deyib.



Onun sözlərinə görə, sosial şəbəkələr fəallaşmağa başlayandan sonra ermənilər bu platformada daha çox görünməyə başlayıblar: "Ermənilərin sosial şəbəkələrin Azərbaycan seqmentinə ayaq açması yenilik deyil. Onlar çoxdandır ad-soyadımızı mənimsəyərək, soail şəbəkələrdə təxribat törətməklə məşğuldurlar. Bu, isə o deməkdir ki, hər bir sosial şəbəkə iştirakçısı diqqətli olmalıdır. Erməni yalanlarına inanmağa, yaxud onları tirajlamağa ixtiyarımız yoxdur. Ermənilər nankor millətdirlər. Onlar öz məqsədlərinə çatmaq üçün nəinki ad-soyadlarından, hətta doğmaca dədələrindən imtina etməyə hazırdırlar. Ayıqsayıq olmaq zamanıdır. Düşmən mətbəxtində hazırlanmış heç bir yalanın ayaq tutub yeriməsinə vəsilə olmamalıyıq. Biz erməninin cümlə quruluşundan, yazdığı sözdən, hətta bircə hərfindən tanımağa məhkumuq".

## Mikayıl Müşfiqin sümük qalıqları axtarışdadır



Repressiya qurbanı olmuş şair Mikayıl Müşfiqin qalıqlarının tapılması məqsədi ilə bir neçə müddətdir ki, axtarışlar aparılır. SİA xəbər verir ki, Səhiyyə Nazirliyinin Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin direktoru Ədalət Həsənov açıqlamasına görə, sümük qalıqları, sümük fraqmentləri onlara təqdim olunur, onlar da sümükləri bir-bir yoxlayır: "Bəli, hazırda işlər davam edir. Kriminalistlər müayinə edir, sonra da genetiklər baxırlar. Proses yekunlaşmayıb. Çünki hələ də davamı gəlir. Sümüklər çoxdur, ona görə də hələ tam dəqiq heç nə demək olmur".

Direktor əlavə olaraq bildirib ki, digər repressiya qurbanlarının da nümunələri gətirilir: "Biz bütün bunların ekspertizasını aparırıq. Nə qədər ki, sümüklər təqdim ediləcək yoxlama aparacağıq, ona görə bu proses uzanır".

## "Ölkə rəhbəri Ermənistanın terrorçuluq fəaliyyətini real faktlarla ifşa etdi"



Azərbaycan Respublikasının Prezidenti, Qoşulmama Hərəkatının sədri Cənab İlham Əliyevin BMT Baş Assambleyasının 75-ci sessiyası çərçivəsində BMT-nin 75 illiyinə həsr edilmiş yüksək səviyyəli iclasındakı çıxışı beynəlxalq aləmdə geniş əks-səda yaratmaqla, həm də dövlətimizin başçısının bəşəri dəyərlərə əsaslanan humanizmini, beynəlxalq hüquq normalarına, insanlığa hörmətini, dünyada baş verən hadisələrə real qiymətini əks etdirmişdir. Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədru, millət vəkili Tahir Rzayev deyib.

Komitə sədrinin sözlərinə görə, sözsüz ki, həmişə olduğu kimi, bu dəfə də ölkəmizin rəhbəri xalqımızın milli maraqları mövqeyindən çıxış etmiş, Ermənistanın təcavüzkarlıq əməllərini, terrorçuluq fəaliyyətini, son günlər sərhədyanı rayonlarda törədilən təxribatları, ölüm hallarını ön plana çəkmiş və erməni faşizminin mahiyyətini, gələcək planlarını real faktlarla ifşa etmişdir.

"Cənab İlham Əliyev bir daha qətiyyətlə bildirmişdir ki, Ermənistanın baş naziri ATƏT-in Minsk Qrupunun həmsədrlərinin vasitəçiliyi ilə aparılan danışıqların format və mahiyyətini məqsədyönlü şəkildə pozur. Onun "Qarabağ Ermənistandır" bəyanatı danışıqlar prosesinə ciddi zərbədir. Dövlətimizin başçısı bir daha öz fikrini bütün dünyaya bəyan etmiş və bildirmişdir ki, sülhə nail olmaq üçün bizim yeganə şərtimiz var, Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal edilmiş bütün ərazilərindən çıxarılmalıdır. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın tərkib hissəsi olaraq tanıyır. Ancaq Ermənistan heç br beynəlxalq sənədə, qərara məhəl qoymur, nasizmi təbliğ edir, şöhrətləndirir, yeni işğal planları hazırlayır, terrorçuları Qarabağ torpaqlarında yerləşdirməklə, Suriyadan, Livandan olan erməniləri bu ərazilərdə məskunlaşdırmaqla, müharibə cinayətlərini təkrarlayır, qarşıdurmalara zəmin yaradır. Prezidentimiz BMT-ni və beynəlxalq ictimaiyyəti Ermənistanı növbəti hərbi təxribatdan çəkindirməyə dəvət edib və qətiyyətlə deyib ki, Ermənistan-Azərbaycan münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində və BMT Təhlükəsizlik Şurasının Qətnamələri əsasında həll edilməlidir. Əlbəttə, bizim başqa yolumuz yoxdur. Əgər Ermənistanın hərbi-siyasi rəhbərliyi deyilənə əməl etməsə, Azərbaycan öz ərazilərini terrorçulardan təmizləmə hüququnu özündə saxlayır və sözsüz ki, torpaqlarımız hərbi yolla işğaldan azad ediləcək. Çünki, Azərbaycanın öz torpaqlarını düşməndən azad etmək imkanı böyükdür və Azərbaycanın çox güclü, qüdrətli ordusu vardır", deyə Tahir Rzayev bildirib.

*İnam Hacıyev*

## DİN "Pikap"avtomobillərin YPX postlarında saxlanılmasının səbəblərini açıqladı



Daxili İşlər Nazirliyi (DİN) "Pikap"avtomobillərin YPX postlarında saxlanılmasının səbəblərini açıqlayıb. Nazirlikdən SİA-ya daxil olanda məlumatda deyilir: ""Pikap" tipli avtomobillərin YPX postlarında saxlanılması ilə əlaqədar bildiririk ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 4 aprel tarixli 96 nömrəli qərarı ilə təsdiq edilmiş "Hərbi nəqliyyat vasitələrinin uçot qaydaları"na əsasən silahlı birləşmələrə və xüsusi birləşmələrə vaxtında, keyfiyyətli və tam həcmdə təqdim edilməsi məqsədilə hərbi nəqliyyat vasitələrinin texniki vəziyyətinin plan üzrə Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi və nəqliyyat vasitələrinin dövlət qeydiyyatını aparan digər təşkilatlar ilə birlikdə yoxlanılması nəzərdə tutulur.

"Pikap" tipli və texniki imkanları onlara uyğun olan digər xüsusi təyinatlı nəqliyyat vasitələri Nazirlər Kabinetinin 2006-cı il 16 fevral tarixli 51 nömrəli qərarı ilə təsdiq edilmiş siyahıdakı yüksək keçidli avtomobillərin kateqoriyasına aid olduqlarına görə həmin nəqliyyat vasitələrində yolsuzluq şəraitində istismar sistemlərinin texniki müayinəsi, nəqliyyat vasitələrinin uçot-qeydiyyat göstəricilərinin dəqiqləşdirilməsi və istifadə olunduqları ərazinin (şəhər, qəsəbə, kənd) müəyyən edilməsi məqsədilə stasionar postlarda saxlanılır və bu haqda sahiblərinə məlumat verilir".

## Artur Vanetsyan: "Paşinyan geriyədönməz deqradasiyaya uğrayıb"



"Belə görünür ki, Paşinyanın heç bir bəyanatı və fəaliyyəti artıq bizi təəccübləndirməyə bilməz". SİA erməni KİV-nə istinadən xəbər xəbər verir ki, bu sözləri Ermənistanın "Vətən" partiyasının sədri, Milli Təhlükəsizlik Xidmətinin sabiq sədri Artur Vanetsyan baş nazir Nikol Paşinyanın bugünlərdə səsləndirdiyi fikrinə münasibətini açıqlayarkən deyib.

Onun sözlərinə görə, baş nazirin fikri yüksək çinli dövlət adamının geriyədönməz deqradasiyasını sübut edir və bu, özünü bütün tərəflərdən göstərir. Partiya sədri əlavə edib ki, hökumətin başçısı öz davranışı ilə dövlətçiliyi elə səviyyəyə qədər endirməyə çalışır ki, artıq bu məsələ dövlətçiliyin qalıb-qalmaması sualını ortaya qoyur. "Biz əminmiyik ki, Paşinyan beynəlxalq münasibətlər məsələsində bu qədər aşağı səviyyəyə düşməyəcək? Əminmiyik ki, həmin səviyyə təhlükəsizliyimizə də xələl gətirməyəcək?", sualını edən Vanetsyan onu da qeyd edib ki, yeni hökumətin formalaşdırılması tarixi imperativə çevrilib.

*Rövşən*

## Vətəndaşların və dövlətin mənafelərinə zərər vuran şirkət rəhbərlərinə cinayət işi açıldı



Ölkəmizdə dövlət strukturlarının əhalinin sağlamlığının qorunması, digər sahələr üzrə xidməti fəaliyyətin təşkili istiqamətində səfərbər olunduğu vaxtda mövcud vəziyyətdən öz maraqları naminə istifadə edərək, vətəndaşların və dövlətin qanunla qorunan mənafelərinə zərər vuran əməllərə qarşı prokurorluq orqanları tərəfindən mübarizə tədbirləri davam etdirilir.

Baş Prokurorluğun Mətbuat Xidmətindən SİA-ya verilən məlumata görə, bu istiqamətdə görülən tədbirlər çərçivəsində "AGRO-MEAT" Məhdud Məsuliyyətli Cəmiyyətinin səlahiyyətli şəxsləri Vəliyev Ehtiram İldırım oğlu, Ələkbərov Namiq Oktay oğlu və digərlərinin qanunsuz hərəkətləri ilə bağlı Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən aparılmış təxirəsalınmaz əməliyyat-axtarış tədbirlərinin nəticələri əsasında fakta görə Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanmışdır.

Aparılmış istintaqla "AGRO-MEAT" MMC-ni icarəyə götürmüş Ehtiram Vəliyevin MMC-nin nümayəndəsi Namiq Ələkbərov ilə birlikdə 23-25 iyun 2020-ci il tarixlərdə ölkə ərazisində yerləşən mal-qara bazarlarından və ayrı-ayrı şəxslərdən 6.890 kiloqram miqdarda keyfiyyətsiz ət məhsulunu ucuz qiymətə alaraq, həmin ət məhsulunu Ağcabədi rayonu, Xocavənd kəndində yerləşən MMC-yə məxsus kəsimxanada müvafiq standartlara uyğun olmayan şəraitdə satmaq məqsədilə saxlamalarına əsaslı şübhələr müəyyən edilmişdir.

Baş İdarə tərəfindən 25 iyun 2020-ci il tarixdə həyata keçirilən tədbirlər nəticəsində qeyd olunan kəsimxanada 41 min 340 manat dəyərində 6.890 kiloqram çəkidə keyfiyyətsiz ət məhsulu aşkar olunaraq götürülmüşdür.

İş üzrə toplanmış sübutlara əsasən 22 avqust 2020-ci il tarixdə Ehtiram Vəliyevə Cinayət Məcəlləsinin 29, 200.2.3 (istehlakçıları külli miqdarda ziyan vurmaqla aldatma və ya ya pis keyfiyyətli məhsul istehsal etmə və ya satmaya cəhd etmə) və 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə etmə), Namiq Ələkbərova isə Cinayət Məcəlləsinin 32.5, 29, 200.2.3-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə etməyə köməkçilik etmə) maddələri ilə yekun ittiham elan edilərək, cinayət işi üzrə istintaq yekunlaşdırılmış və baxılması üçün aidiyyəti üzrə Ağcabədi rayon Məhkəməsinə göndərilmişdir.

## Tramp Con Boltonu növbəti dəfə ələ salıb, Co Baydeni tənqid edib



ABŞ prezidenti Donald Tramp milli təhlükəsizlik məsələləri üzrə keçmiş məsləhətçisi Con Boltonu növbəti dəfə ələ salıb. SİA "CNN"ə istinadən xəbər verir ki, Tramp onu "axmaq" deyə adlandırıb. "Əgər bu axmağa qulaq assaydım, indi 5-ci dünya müharibəsini yaşayardıq", - deyə prezident prezident seçkiləri öncəsi Ohayo ştatının Deyton şəhərində seçiciləri ilə görüşündə belə deyib.

Keçmiş müşaviri Con Boltonu tənqid edən Ağ Ev rəhbəri, həmçinin Demokratlar partiyasından olan namizəd - seçkilərdəki rəqibi Co Baydenə məğlub olacağını uğursuzluq kimi qiymətləndirib: "Bayden qalib gəlsə, tarixin ən pis namizədinə seçkiləri uduzacağam. Bayden dəyişməz bir qlobalistdir. Bilirsiniz ki, qlobalistlər kənarda qalıblar. Onlar bu ölkəni məhv ediblər".

## Bakcell və tərəfdaşları ilə "Xəzəri qoruyaq"



Beynəlxalq Sahilyanı Təmizlik Günü çərçivəsində Bakı çimərliklərində "Xəzəri qoruyaq" şüarı ilə növbəti təmizlik aksiyası keçirilib. "Coca-Cola", Bakcell, PASHA Bank, "Carlsberg", "AzEcol" şirkətləri, ASAN Xidmət və Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən təşkil olunan aksiya Bakının 20 müxtəlif çimərliyində baş tutub. Tədbirə qatılan və dəstək olan digər qurumlar sırasında "ASAN Könüllüləri", Azərbaycan Dövlət Reklam Agentliyi, ASAN Radio, AFFA, Milli Olimpiya Komitəsi və Azərbaycan Velosiped İdmanı Federasiyası da var.

Ekoloji durumun yaxşılaşdırılması, əhalinin maarifləndirilməsi və ətraf mühitə qayğını təbliğ edilməsi məqsədilə həyata keçirilən tədbir çərçivəsində bu il Bilgəh, Novxanı, Mərdəkan, Pirşağı, Şıxov, Hövsan və Sumqayıt ərazisində olan çimərliklər tullantılardan təmizlənib.

Sosial məsafənin qorunmasını təmin etmək üçün bu dəfə təmizlik aksiyasında iştirak edən könüllülər 10 nəfərdən ibarət kiçik qruplara bölünərək fərqli məkanlarda təmizlik işləri aparıblar. Nəticədə 5 min ton həcmində tullantı toplanaraq təkrar emala və utilizasiyaya yönləndirilib.

Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın müvafiq qərarına uyğun olaraq sahilyanı təmizlik aksiyasının bütün iştirakçıları tibbi maska və antiseptik vasitələrlə təmin olunub. Sosial məsafənin qorunması ilə yanaşı ölkə ərazisində tətbiq edilən xüsusi karantin rejimi dövründə mövcud məhdudiyyətlər nəzərə alınıb. Bütün aksiya iştirakçıları təşkilatçılar tərəfindən nəqliyyat, idman köynəkləri, sərinləşdirici içkilər və qida, həmçinin təmizlik ləvazimatları ilə təmin olunub.

Qeyd edək ki, Bakcell şirkəti artıq uzun illərdir ki ardıcıl olaraq bu aksiyada iştirak edir. Korporativ sosial məsuliyyətli şirkət olan Bakcell bu hərəkata qoşulan ilk mobil operator kimi ölkədə ekologiya sahəsində maarifləndirmə fəaliyyətinin həyata keçirilməsinə, ətraf mühitin və əhalinin sağlamlığının qorunmasına öz töhfəsini verir.

# “Müxalifət Tofiq Yaqublu məsələsi ilə bağlı öz istəklərinə çatmadı”

***“Məlum olduğu kimi, Bakı Apelyasiya Məhkəməsində Müsavat Partiyasının üzvü Tofiq Yaqublunun barəsindəki hökmdən verilən şikayətə baxılıb və Məhkəmə Tofiq Yaqublunun ev dustaqlığına buraxılması ilə bağlı vəsatəti təmin edib. Bununla da müxalifət T.Yaqublu “faktor”undan öz siyasi məqsədləri üçün istifadə edə bilmədi. Bu onların növbəti dəfə ifşası və iflası oldu”. Bunu Vəhdət partiyasının sədri, millət vəkili Tahir Kərimli “Səs” qəzetinə açıqlamasında deyib.***



Partiya sədri bildirib ki, müxalifətin böyük bir qismi istəyirdi ki, Tofiq Yaqublunun başına nə isə iş gəlsin: “Amma, Cənab Prezident və dövlətimiz böyük humanist addım atdı T.Yaqublu ev dustaqlığına buraxıldı. Baxmayaraq ki, T.Yaqublu qatı müxalifətçilik mövqeyində qalır. T.Yaqublu məhkəmədən çıxandan sonra heç olmasa mülayim mövqe sərgiləyərdi, amma biz bunun əksini gördük, yəni “Meydan” Tv və digərləri T. Yaqublunu qızışdırdılar dövlətə, hökumətə qarşı. Bütün bunlara baxmayaraq dövlətimiz səbr göstərir. Bir sözlə, Azərbaycanda məhkəmə hakimiyyəti var və məhkəmə hakimiyyətinin qanun və ədalətə söykənən addımlar atır”.

T.Kərimli bildirib ki, T.Yaqublu haqqında qanuna və ədalətə əsaslanan qərar veriləcək: “Amma müxalifət yenə də Tofiq Yaqublu məsələsi ilə bağlı öz istəklərinə çatmadı, ifşa olundu dövlətmizin humanizm prinsiplərinə söykəndiyini nəyin ki, Azərbaycan xalqı eyni zamanda, beynəlxalq ictimaiyyət bir daha gördü. Xalqımızın dövlət, Prezident ətrafında birləşməyin zərurəti bir daha ortaya çıxdı. İndi artıq elə bir vaxtdır ki, bütün diqqətimizi ancaq torpaqlarımızın işğaldan azad olunmasına yönəltməliyik. Belə bir vaxtda içəridən cəmiyyəti parçalamaq istəyənlər düzgün mövqedə deyillər. T.Yaqublunun ev dustaqlığına buraxılması bir daha huanizmin nümayişi oldu ki, bu da müxalifətin öz siyasi məqsədlərindən istifadə edə bilməsini əngəllədi və bir növ onların niyyətləri həyata keçmədi və iflasa uğradı”.

***Gülyana***

# Tofiq Yaqublu ilə bağlı qərar və “5-ci kolon”un əsl siması...

*Yaxud Əli Kərimli tülkü cildində*

***Bu məqamda politoloq, əməkdar jurnalist Eynulla Fətullayevin AXCP sədri Əli Kərimli ilə bağlı yazdığı bir məqalə yadıma düşdü: “Gəlin Makiavellinin bir ifadəsini təkrar edib bu sualı verək: şirlə tülkünü eyni arabaya qoşmaq olarmı? Florensiya Respublikasının ikinci dəftərxanasının birinci katibi insanların siyasi xarakteri barədə düşünərkən siyasətçiləri şirlərə və tülkülərə bənzədirdi. Şirlər tələdən, tülkülər isə canavardan qorxurlar! Nikkolo belə düşünürdü. Amma şirlə tülkünü eyni qoşquda təsəvvür etmək mümkün deyil. Ən azı ona görə ki, Azərbaycan siyasətinin tülküsü Əli Kərimli ancaq elə tülkü olaraq qalır. Və meydanlarda da elə ulaya-ulaya qalır”.***



Bəli bu gün “5-ci kolon”un quldur və satqın dəstəsinin arzuları ürəyində qaldı. Tofiq Yaqublu faktorundan istifadə etməyə, bundan dividentlər qazanmağa çalışan qüvvələr - tülkü cildinə girən Əli Kərimli, Cəmil Həsənli, Sevinc Osmanqızı, Leyla və Arif Yunuslar, Gültəkin Hacıbəyli, Vidadi İskəndərli, Arif Məmmədov və bu kimi fərdlər sosial şəbəkələrdən dövlətin atdığı bu humanist addımı qiymətləndirmək düşüncəsinə malik deyillər. Bunlar həmin şəxslərdirlər ki, Tofiq Yaqublunun taleyi üzərindən qurulan xüsusi bir oyunun iştirakçıları olduqlarını aşkar şəkildə göstərdilər. Təbii ki, bu işdə xaricdə oturan şəxslərin planları məhv oldu, əllərində saxlamaq istədikləri böyük imkanlar heçə endi. Və bu gün həmin adamlar yenə də öz artistliklərini davam etdirərək, tülkü cildində nəyin bahasına olursa-olsun istəklərini həyata keçirməkdir.

### Dövlətin humanist addımı, müxalifətin absurd kampaniyası...

T.Yaqublunun evə buraxılmasından ən çox alışıb-yanan Azərbaycan əleyhdarları olan xarici dairələrin maliyyəsi və sifarişləri ilə fəaliyyət göstərən, hakimiyyət uğrunda mübarizədə ən iyrənc, normal siyasətçiyə yaraşmayan, qəbuledilməz vasitələrdən istifadə edən AXCP sədri Əli Kərimli, onun marionetkası olan “Milli Şura”nın rəhbəri Cəmil Həsənli, bu qurumun Koordinasiya Şurasının üzvü Gültəkin Hacıbəyli, ingilis ruporu, mənəviyyatsız Sevinc Osmanqızı, gecəli-gündüzlü dəmli halda sosial şəbəkədə “yurd” salan Vidadi İskəndərli və bu kimi vücudları belə erməniləşən, ermənidən betərlər antiazərbaycan dairələrin əlində alətə çevrilən və millətimizin adına ləkə olan bu satqınlar Azərbaycana qarşı çirkin təbliğat aparmaqdan yorulmurlar. Onlar Avropada erməni fondlarının maliyyəsi hesabına sosial medianın imkanlarından yararlanıb ölkəmizin mövcud reallıqlarını unudaraq, yalan, böhtan yolu ilə Azərbaycanda siyasi proseslərə müdaxilə edirlər. Onları narahat edən Azərbaycanın dövlətçiliyin möhkəmləndirilməsi yolu ilə inamla irəliləməsi, sosial-iqtisadi sahələrdə dinamik inkişafın təmin edilməsi, xalqın mənafeyinin ciddi şəkildə qorunması, xalq-iqtidar birliyinin dönməz xarakter alması, beynəlxalq aləmə inteqrasiya güclənməsi, qlobal layihələrin uğurla gerçəkləşdirilməsidir. Bu gün Tofiq Yaqublu faktoru da göydəndüşmə idi. Ancaq Tofiq Yaqublunun məsələsi digər məsələlər kimi dövlətimiz tərəfindən həssaslıqla qarşılandı. Bir daha qeyd edirəm ki, onun özəl klinikaya köçürülməsi, sağlamlığı naminə zəruri tədbirlər görülməsi üçün bütün addımlar atıldı və sentyabrın 18-də keçirilən apelyasiya məhkəməsinin qərarına əsasən Tofiq Yaqublu ev dustaqlığına buraxıldı. Ancaq...

Dövlətin humanist addımı, radikalların qanmazlığını bir daha göstərdi. Çünki radikal müxalifət və “5-ci kolon” Yaqublunun aclıq aksiyasını kampaniyaya çevirərək, siyasi maraqlarını onun üzərindən təmin etməyə, bu bu prosesin uzanmasına, Tofiq Yaqublu aclığı davam etdirməsinə, komaya düşməsinə və bundan istifadə emək idi. Yenə də radikalların “arzusu” daşa dəydi. Məhkəmə məhz Tofiq Yaqublunun sağlıq durumunda ciddi problem yaranmasına yol verməmək üçün onun barəsində çıxarılmış qərarı dəyişdirdi. Bu, Azərbaycan dövlətinin növbəti humanist addımı, insan həyatını ən ali dəyər kimi qiymətləndirməsinin ən bariz nümunələrindən biri olmaqla sübut etdi ki, Tofiq Yaqublunun qızı Nigar Həzi, AXCP sədri Əli Kərimli, Cəmil Həsənli, Gültəkin Hacıbəyli, Sevinc Osmanqızı kimi şəxslər ancaq öz məqsədləri üçün ən ali prinsipləri belə tapdamağa hazırdırlar.

Lakin təcrübə də göstərir ki, təzyiq, şantaj və bu kimi yollarla Azərbaycan dövlətinə, hakimiyyətə, məhkəməyə təsir etmək mümkün deyil və belə cəhdlər həmişə olduğu kimi iflasa məhkumdur. Və Avropada olan bəzi anti-Azərbaycan qüvvələrin əlinə artıq heç bir əsas vermir ki, dövlətimizin ictimai-siyasi imicinə zərər vursunlar. Cənab Prezident və Azərbaycan dövləti humanizm prinsiplərindən çıxış edərək, ziyalıların müraciətlərini və ailə üzvünün istəyini nəzərə alaraq bu məsələ ilə bağlı öz mövqeyini ortaya qoydu. Onların bu niyyəti də gözündə qaldı.

Beləliklə də, radikal müxalifətin və “5-ci kolon”un fürsətçil, cılız siması bir daha aydın və ifşa oldu.

***Rəfiqə HÜSEYNOVA***

# ADP sədri müxalifətin uğursuzluğunu kimlərlə əlaqələndirdi?

*Sərdar Cəlaloğlu: “Əli Kərimli ya dağıtmaqla məşğul olub, ya da ümumiyyətlə, birliklərin yaranmasına imkan verməyib”*

***Ənənəvi müxalifətin uzun illər müxtəlif yollarla hakimiyyətə yiyələnmək arzularının baş tutmaması, boşa çıxması artıq belə bir qənaətə gəlməyə zəmin yaradır ki, sözügedən düşərgənin “liderləri” qalsalar da, getsdələr də, hətta onları əvəzləyən yeni şəxslər ortaya çıxarlarsa belə, köhnə və nimdaş düşüncələr müxalifətin müasir siyasi standartlara cavab verməsini mümkünsüz edəcək. Çünki bunun daha bir səsəbi uzun illərdir siyasi arenada var-gəl edən funksionerlərin normal, sivil düşüncə tərzi ilə deyil, hərislik nümayiş etdirmələridir. Uzuun illərdir istər icazəli, istərsə də icazəsiz aksiyaları ilə sifarişlər həyata keçirən düşərgə təmsilçilərinin yerlərində addımlamaları faktlarından biri də məhz budur.***



Lakin maraqlı məqamlardan biri də budur ki, həmin düşərgədə təmsil olunanlar özləri də demək olar ki, həmin ittihamları irəli sürməklə yalnız bir həqiqəti daha müfəssəl izah edirlər. Bu gün müxalifətin demək olar ki, yox səviyyəsində olması davamlı uğursuzluqların düşərgəni müşayiət etməsinin əsl səbəbkarları əsasən AXCP sədri Əli Kərimli və Müsavat partiyasının sabiq başqanı İsa Qəmbərdir.

### “Həmin dövrdə hətta Müsavatın üzvləri belə bir-birinə güzəştə getmədilər”

SİA xəbər verir ki, bununla bağlı ADP sədri Sərdar Cəlaloğlu maraqlı məqamlara toxunub və ittihamlarını bilavasitə ənənəvi düşərgə “liderlərinin” üzərinə doğru yönəldib. SİTAT: “Həmin dövrdə elə zənn edirdilər ki, bu dəqiqə hakimiyyəti elə alacaqlar, hökuməti təşkil edəcəklər. Bu düşüncə ilə ciddi mübarizə aparılmırdı. Azərbaycanda hər zaman yüzdə-yüz qələbəyə inam olmadığı üçün insanlar siyasi və şəxsi maraqlarından çıxış edib, birliyin əleyhinə çıxıblar. Müsavat və AXCP düşünüb ki, qələbə qazanacaqlar, bunun üçün də bu qələbəni heç kimlə bölüşmək istəməyiblər”.

S.Cəlaloğlu daha bir maraqlı məqama toxunub və bildirib ki, İsa Qəmbər 2003-cü ildə prezidentliyə namizəd olanda ilk dəfə siyasi qüvvələrlə əməkdaşlığa getdi və bilirsiniz ki, Rəsul Quliyev də onu dəstəklədi. Onun sözlərinə görə, həmin dövrdə hətta Müsavatın üzvləri belə bir-birinə güzəştə getmədilər: “Elə dairə var idi ki, iki müsavatçı rəqabətdə idi. AXCP ilə Müsavat bir çox dairədə razılaşa bilmədilər”.

### “Əli Kərimli hər kəsi agent hesab edir, amma kimin-kimlə nə əlaqələrinin olduğunu yaxşı bilirik”

AXCP sədri Əli Kərimlinin də daim müxalifətdəki dəyişikliklərə mane olduğunu deyən ADP sədri onu dağıdıcılıqda günahlandırıb: “Əli Kərimli hər zaman Azərbaycanda dəyişiklərə mane olub. Müxalifət daxilindəki birlikləri də Əli Kərimli ya dağıtmaqla məşğul olub, ya da ümumiyyətlə, birliklərin yaranmasına imkan verməyib. Bunu nə üçün edib, özü bilər. Hər halda onun da öz maraqları var”.

S.Cəlaloğlu Əli Kərimlinin maraqlarına cavab verməyənləri “agent” adlandırmasına da münasibət bildirib və əslində onun özünün zaman-zaman agentlik etdiyini deyib: “O, hər kəsi agent hesab edir. Düşünür ki, birliyə gəlmək istəyənlər səmimi deyillər. Amma hər halda biz Azərbaycanda uzun müddətdir ki, siyasətdəyik. Kimin-kim, kimin-kimlə nə əlaqələrinin olduğunu yaxşı bilirik”.

***Rövşən RƏSULOV***

# Stajlı cəbhəçi dələduz sədr qarşıdurması...

*Aydın Əliyev: “Tərcümeyi-halı qara ləkəli Əli Kərimli dələduz, satqın və şantajçıdır”*

**Bəli, bu xəmir hələ çox su aparacaq. Bir adam anadan olduğu gündən ancaq pis niyyətdə olursa, o, ömrünün sonuna kimi öz xislətini gizlədə bilməyəcək. Elə bugünlərdə AXCP sədri Əli Kərimlinin sosial şəbəkələrdə yayılan yazışmasına, o, partiyanın Nəzarət Təftiş Komissiyasının sədri Aydın Əliyevin AXCP-dən uzaqlaşdırılmasına dair necə göstəriş verməsi əks olunub. Həmin yayımda Əli Kərimli partiyanın digər üzvü İradə Nərimana Aydın Əliyevin rəsmi olaraq vəzifəsindən uzaqlaşdırılmasına dair köhnə tarix və imzalarla saxta protokol və digər sənədlər hazırlamasını tapşırır.**

## Eynulla Fətullayev: “Əli Kərimli müxalifət düşərgəsinin tülküsüdür. Bütün tülkü və xəyanətkar siyasəti ilə”

Bəli, bu gün bu tülkü siyasətçi, cinayətkar Ə.Kərimlinin bu şantaj, satqın, xəyanətkar əməlləri elə anadan olduğu zamandan olub. Necə deyərlər: “xəmiri belə yoğrulub”.

AXCP sədri Ə. Kərimlinin Saatlıda yaşayan yaxın qohumları bu fikri dönə-dönə vurğulayırlar ki, olduğu gündən satqın olub, ətrafında olan uşaqları böhtanlayıb və bu gün də eyni yolu gedir. Göründüyü kimi, bir “siyasətçi”nin (siyasətçi yox, riyakar, satqın) tərcümeyi-halında bu qədər qara ləkələr olsun və dünyanı ağuşuna alan koronavirus kimi bir epidemiyaya qarşı mübarizədə dövlət başçısının apardığı siyasətə bütün dünya dövlətlərinin həsəd apardığı bir zamanda “ev dustağı” adı ilə sosial şəbəkələrdə böhtanlı çıxışlarla xalqı mitinqlərə səsləməsi, ancaq həyasızlıq və iblis xislətli olmasından doğur. Bir də, necə deyərlər- qozbeli qəbir düzəldər. Görünür, heç qəbir də Əli Kərimlini düzəldə bilməyəcək.

E.Fətullayev bildirib ki, Ə.Kərimlinin tərcümeyi-halı başdan-ayağa kimi belə şantajla doludur: “Bu gün xalqın çağırışlarına diqqət yetirsək görərik ki, xalq Əli Kərimli kimi satqınların etdiyi cinayətlərə görə cəzalandırılmasını tələb edir. Çünki xalq, xüsusilə gənc nəsil ölkəmizdə demokratik proseslərin inkişafını yüksək dəyərləndirir və bu şəraiti yaradan, Azərbaycanın beynəlxalq aləmdəki mövqelərini getdikcə möhkəmləndirən dövlət başçısının siyasi xəttini dəstəklədiklərini bəyan edirlər. Doğrudur, Əli Kərimli kimi mili maraqlardan, millilikdən uzaq olan xəyanətkar qüvvələrin çağırışlarına isə məhəl qoyan yoxdur. Ancaq bəzi gənclərimiz bu çağırışlardan zəhərlənə bilirlər. Ona görə də belələri etdikləri əməllərin cəzasını çəkməlidir”.

## Əli Kərimlinin son 20-25 ildə dağıdıcı məqamları...

1995-ci ilin payızında Azərbaycanda Milli Məclisə keçiriləcək seçkilər. Bu, o vaxtlar idi ki, mərhum Əbülfəz Elçibəy təşkilatına - AXC(P)-ə Kələkidən tam nəzarət edə bilmirdi. Bundan istifadə edən Ə.Kərimlinin “Yurd”laşdırılmış nəzarəti “at oynadırdı”. Bundan sonra da Əli Kərimli müxalifət düşərgəsində birlik təşəbbüslərinə sarsıdıcı zərbələr vurdu. 2000-ci ilin parlament seçkilərində ortaya qoyduğu mövqe yəqin çoxlarının yaddaşından hələ də silinməyib. Yenə də Müsavatla AXCP-nin seçkiyə “vahid siyahı” ilə getmələri təşəbbüsü Ə.Kərimli tərəfindən “vuruldu”. Seçkidən sonra isə müxalifətin tutduğu vahid mövqeyə qarşı çıxmaqla Ə. Kərimli növbəti missiyasını yerinə yetirmiş oldu. Bu gün Ə. Kərimli kimlərəsə boşuna qucaq açmır. Elə məşhur bir aforizmdə deyildiyi kimi, “onları sevdiyi üçün qucaqlamır, sevmədiyi üçün qucaqlayır. Ki, bağrına basıb, elə möhkəm sıxsın ki, boğulsunlar...”

Bax, bu reallıqdır ki, Əli Kərimlinin yanında olmaq, ona inanmaq, güvənmək minalanmış ərazi ilə yol getmək qədər riskli və təhlükəlidi. Ə.Kərimli bir reallığı anlamalıdır ki, növbəti dəfə özünü “müxalifətin vahid lideri” olaraq təqdim edib və bu vasitə ilə onun aldadıcı çağırışlarına inanan müxalifət partiya sədrlərini özündən “asılı” vəziyyətdə olduğunu nümayiş etdirməyə cəhd göstərsə də, artıq müxalifət bu cinayətkarın hansı xislətdə olduğunu bilir.

## Aydın Əliyev: “Uduza-uduza gedirsən, cəsarətin və mənliyin çatırsa, istefa ver”

AXCP-nin sabiq NTK sədri Aydın Əliyev AXCP sədri Əli Kərimli kimi həyasız, bəli həyasız bir məxluq görmədiyini bildirib. Qeyd edib ki, 1988-ci ildən etibarən xalq hərəkatının fəal üzvü olmuşam: “AXCP-nin ən fəal üzvlərindən biri olaraq, partiyada müxtəlif rəhbər vəzifələrdə olmuşam. 2015-ci ildə AXCP Nəzarət Təftiş Komissiyasının üzvü, sonra isə sədri seçilmişəm. Sonradan bilmişəm ki, mənim kimi obyektiv, düz danışan, prinsipial bir adamın bu vəzifəyə seçilməsi Əli Kərimlinin ürəyincə olmayıb”. Azərbaycan Xalq Cəbhəsi Partiyasının (AXCP) Nəzarət-Təftiş Komissiyasının (NTK) sədri Aydın Əliyev Facebook-dakı səhifəsi vasitəsilə partiyadaşlarına müraciət edib.

A.Əliyevin dediyinə görə, partiyadaxili, xaricdən gələn qrant və s. pul məsələlərini ancaq öz nəzarətində saxlayan, özünün, ailəsinin və xaricdə yaşayan oğlunun ərəb şeyxləri kimi yaşamasına sərf edən Əli Kərimlini onun kimi düzgün, əqidəli adam qane etməyib: “30 illik siyasi fəaliyyətimdən sonra başa düşmüşəm ki, mən və mənim kimi yüzlərlə cəbhəçi Əli Kərimli tərəfindən aldadılmışıq. O, bizim hər birimizdən öz şəxsi mənafeyi üçün istifadə edib. Sözdə demokratiya uğrunda mübarizə aparıldığını desə də, əslində, partiyada sərt diktatura rejimi qurub.

Əli Kərimli fərqli düşünənləri, onun anti-demokratik hərəkətlərinə etiraz edənləri ən çirkin üsullarla ləkələyib, böhtanlara məruz qoyub, partiyadan uzaqlaşdırıb”.

A.Əliyev daha sonra onu da bildirib ki, dəfələrlə demişəm ki, AXCP sədri Əli Kərimli dələduzdur, şantajçıdır, cinayətkardır, illərdir ki, onun partiya üzvlərini aldadır: “Bu gün də gənclərimizi aldadaraq özünün çirkin oyunlarına qurban vermək istəyir. Sizin çoxunuz Əli Kərimlinin anti-demokratik, qanunsuz partiyanın nizamnamə və məramnaməsinə zidd əməllərindən xəbərdarsız, lakin onu dilə gətirməkdən çəkinirsiz. Əli Kərimli kimi diktator bu ölkədən itib getməlidir”.

A.Əliyev etiraf edib ki, Əli Kərimli və onun əlaltıları onu da çirkin oyunlarının qurbanına çevirib, ləkələyib par-



tiyadan, siyasi mübarizədən uzaqlaşdırmağa məcbur etməklə məşğuldur və onun Əli Kərimlinin iç üzünü açmaq lazımdır. O, AXCP sədrinə bir daha müraciət edərək bildirib ki, bu illər ərzində apardığın çirkin, xəyanətkar oyunlar yetər: “Partiyada yaratdığın diktaruraya son qoy! Əgər cəsarətin və mənliyin çatırsa, istefa ver! Qoy partiyanın üzvləri özlərinə gənc, savadlı, xalqını sevən, bacarıqlı rəhbər seçilsin. Azərbaycanı fəlakətə aparan əməllərindən əl çək! Bilirəm ki, bu müraciətimdən sonra Əli Kərimlinin göstərişi ilə əlaltıları mənə qarşı böhtan və şər kampaniyasına başlayacaqlar. Ancaq bütün bunlara əhəmiyyət verməyərək qabaqcadan həmin şəxslərə səslənirəm ki, mənim barəmdə danışarkən haqq və ədalət hissini unutmasınlar. Bir gün onlar da Əli Kərimlinin çirkin oyunlarının qurbanı olduqlarını başa düşəcəklər”.

Görünür, elə bu səbəbdən də Əli Kərimli yenidən A.Əliyevlə bağlı saxta sənədlərin hazırlanması tapşırığını verib. Ancaq haqq nazilər, amma üzülməz.

## Əli Kərimli şablon təfəkkür yiyəsidir

A.Əliyev onu da bildirib ki, AXCP sədri, həm də bloqer şablon təfəkkür yiyəsi olduğundan anlamır və anlamaq istəmir ki, ABŞ-da yaşayan Sevinc Osmanqızı YouTube-dakı kanalını faktiki olaraq Əli Kərimlinin təbliğat ruporuna çevirə bilər: “Vidadi İsgəndərli, Rafael Piriyev, Tural Sadıqlı, Məhəmməd Mirzəli, Orduxan Teymurxan və başqaları Əli Kərimlinin bəh-bəhlə tərifləyə bilər, amma bütün bu qəfil sevgi həmin lümpenlərin, siyasəti plebey səviyyəsinə salmış adamların maraqlarıdır, vəssəlam. Onlar yalnız öz mənafelərini güdürlər və həmin başabəla bloqerlərdən yararlandığını düşünən Əli Kərimlidən, əslində, kukla kimi istifadə edirlər. Həmin söyüş mexanizmləri, sosial şəbəkə müxalifəti Azərbaycandakı indiki sekulyar, şüarlarında “Ləbbeyk!” kəlməsinin yer almadığı, seçkilərdən və siyasi mübarizədən bəhs edən müxalifətin düşmənidir. Bu adamlar nə təklif edirlər? Qan, qada, vətəndaş savaşı, qiyam, qarğaşa və xaos”.

## Sonsuz saxtakarın yeri...

“Bəli, Ə.Kərimli saxtakarlığı sonsuzdur”, -AXCP NTK sədri A.Əliyev bildirib ki, Ə.Kərimli partiya daxili maliyyə, xaricdən gələn qrant və sair pul məsələlərini ancaq öz nəzarətində saxlayıb, özünün, ailəsinin, xaricdə yaşayan oğlunun, ərəb şeyxlərinin övladı kimi yaşamasına sərf edib. Onun sözlərinə görə, AXCP sədri Ə.Kərimlini düzgün, əqidəli cəbhəçilər heç zaman qane etməyib: Baxın: Moskvadan hər ay “Milli Şura” və AXCP adlı qurumlara nə az, nə çox - 412 min dollar vəsait daxil olub. Milli Demokratiya İnstitutu tərəfindən ayrılmış 140 min dollar, Avropa İttifaqı Nümayəndəliyi Demokratiya və İnsan Hüquqları üzrə Avropa Aləti (DİHAA) və Qeyri-Dövlət İştirakçıları (QDİ) proqramları çərçivəsində 9 milyon manata yaxın vəsait, Avropa Komissiyasının xəttilə ayrılan 2.7 milyon avro, ABŞ-ın Azərbaycandakı səfirliyindən 15322 dollar, Dünya Bankından 10500 dollar, “Revenue Watch Institute” (ABŞ) 30000 dollar, “Asiya İnkişaf Bankı” üzrə QHT Forumundan 4720 dollar, ABŞ-ın Demokratiyaya Milli Dəstək Fondundan (NED) 40250 dollar, Böyük Britaniyanın Azərbaycandakı səfirliyindən 5000 funt sterlinq, Açıq Cəmiyyət İnstitutu - Yardım Fondundan 19615 dollar, yenə də NED-dən 42796 dollar, ABŞ-ın “Kounterpart İnterneşnl” Beynəlxalq Humanitar Təşkilatının Azərbaycandakı nümayəndəliyindən 29448 manat, ümumilikdə isə, iki ildə 210.000 dollar, ABŞ-ın Marşal Fondundan (GMF) 21800 dollar, Avropa Birliyindən 120.374 avro, 250 min avro isə əldə olaraq. Bu vəsaitin 60 %-i, yəni 500 min dollara yaxını birbaşa Əli Kərimlinin şəxsi büdcəsinə daxil olub. O, bizim hər birimizdən şəxsi mənafeyi üçün istifadə edib. Yeri gəlmişkən, biz bu sıralamaya Ə.Kərimlinin mühacir biznesindən və digər qaranlıq sahələrdən əldə etdiyi gəlirləri də əlavə edəriksə, daha çox milyonluq rəqəmlərin şahidlərinə çevrilmiş olarıq.

AXCP NTK sədri A.Əliyev deyib ki, Ə.Kərimli bir siyasi dələduz olaraq cəbhəçiləri, xalqımızı illərdir aldadır. O, bu gün də gənclərimizi aldadaraq, özünün çirkin oyunlarına qüvvət vermək istəyir. Sizin çoxlarınız Əli Kərimlinin antidemokratik, qanunsuz, partiyanın nizamnamə və məramnaməsinə zidd əməllərindən xəbərdarsınız. Lakin onu dilə gətirməkdən çəkinirsiniz. Bizim məqsədimiz Ə. Kərimli kimi bir diktatoru yox, azad, demokratik seçkilər nəticəsində xalqımızın etimad göstərdiyi bir siyasi liderin hakimiyyətə gəlməsi olmalıdır. Əziz dostlar, Ə. Kərimli və onun əlaltıları məni də öz çirkin oyunlarının qurbanına çevirib, ləkələyərək partiyadan, siyasi mübarizədən uzaqlaşdırmağa, istefa verməyə məcbur etmək istəyirlər. Ancaq bildirirəm ki, mən istefa verməyəcəyəm. Partiyamızda olan yüzlərlə əqidəli, xalqını sevən cəbhədaşlarımla birlikdə Əli Kərimlinin partiyamızda yaratdığı diktatura rejiminə, onun çirkin oyunlarına qarşı mübarizə aparacağıq. Onun bütün xəyanətkar əməllərini ifşa edəcəyik. Çalışacağıq ki, partiyamızın bütün üzvləri, həm də xalqımız Əli Kərimlinin iç üzünü tanısınlar. Onun, əslində xalqımıza qarşı hansı xəyanətlərə yol verməsindən xəbərdar olsunlar. Əli Kərimli, bu illər ərzində apardığın bu çirkin, xəyanətkar oyunlar yetər!

**Rəfiqə HÜSEYNOVA**

# Paşinyanın anlamazlığı - Ermənistan uçuruma doğru...

## Azərbaycan Prezidentindən Ermənistana növbəti xəbərdarlıq: "Yeni dərs almaq istəyirlərsə, biz hazırıq"

***Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 19-da Heydər Əliyev adına Bakı dərin özüllər zavodunda "Abşeron" yatağının dəniz əməliyyatlarının təməlqoyma mərasimindən sonra Azərbaycanın televiziya kanallarına müsahibəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqların hazırkı vəziyyətini mənfi qiymətləndirdiyini bildirib: "Hesab edirəm ki, Azərbaycan xalqı mənimlə tam razıdır. Bilirsiniz, mən hər zaman Azərbaycan xalqına həqiqəti demişəm. Hesab edirəm ki, bu, yeganə düzgün siyasətdir. Xalq bilməlidir nələr baş verir, hansı yerdəyik, nədir bizim siyasətimiz. Mənim çıxışlarımda və media nümayəndələri ilə görüşlərimdə aktual məsələlərə aydınlıq gətirirəm və bu, hesab edirəm ki, çox vacibdir. Çünki vətəndaşlar bilməlidirlər və düzgün təhlil aparmaq üçün onlar düzgün məlumat əldə etməlidirlər".***

"Mən danışıqların hazırkı vəziyyətini mənfi qiymətləndirirəm. Hesab edirəm ki, Azərbaycan xalqı mənimlə tam razıdır. Bilirsiniz, mən hər zaman Azərbaycan xalqına həqiqəti demişəm. Hesab edirəm ki, bu, yeganə düzgün siyasətdir. Xalq bilməlidir nələr baş verir, hansı yerdəyik, nədir bizim siyasətimiz. Mənim çıxışlarımda və media nümayəndələri ilə görüşlərimdə aktual məsələlərə aydınlıq gətirirəm və bu, hesab edirəm ki, çox vacibdir. Çünki vətəndaşlar bilməlidirlər və düzgün təhlil aparmaq üçün onlar düzgün məlumat əldə etməlidirlər".



### "Mən demişəm ki, biz imitasiya naminə danışıqlarda iştirak etməyəcəyik"

Dövlət başçısı bildirib ki, danışıqlar faktiki olaraq getmir, görüntü naminə aparılır: "Mən demişəm ki, biz imitasiya naminə danışıqlarda iştirak etməyəcəyik. O demək deyil ki, biz danışıqlardan imtina edirik. Ancaq o deməkdir ki, biz Ermənistanın özünə görə bic siyasətinə qoşulmaq istəmirik. Bu görüntü naminə aparılan danışıqlarda iştirakımız o görüntünün mahiyyətinə uyğun olacaqdır. Faktiki olaraq Ermənistan rəhbəri danışıqlar prosesini pozub. Pozur yox, pozub. Çünki onların cəfəng bəyanatları, təxribat xarakterli addımları danışıqları mənasız edir. Əfsuslar olsun ki, Ermənistanın indiki rəhbərliyi bu məsuliyyəti dərk etmir. Onların bu addımlarının nəyə gətirib çıxara biləcəyini də düzgün təhlil edə bilmir. Halbuki Ermənistanda rasional düşüncəli insanlar, siyasətçilər var və o siyasətçilər özləri artıq bu məsələni qaldırırlar və Ermənistan ictimaiyyətinə öz fikirlərini çatdırırlar ki, bugünkü Ermənistan rəhbərliyi Ermənistanı uçuruma aparır".

### "Bizim başqalarının torpağında gözümüz yoxdur, öz torpağımızı da heç kimə verən deyilik"

"Biz mütləq öz torpaqlarımıza qayıdacağıq. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır, tarixi Azərbaycan torpağıdır. 1990-cı illərin əvvəllərində Azərbaycanda hakimiyyətdə olmuş insanların xəyanəti, satqınlığı nəticəsində biz müvəqqəti olaraq Dağlıq Qarabağı itirdik", -deyən Prezident İlham Əliyev bildirib ki, Dağlıq Qarabağ bizim qədim, tarixi torpağımızdır və biz mütləq o torpaqlara qayıdacağıq: "Bütün dağıdılmış tarixi abidələri, dağıdılmış evləri bərpa edəcəyik. Küçələrə Azərbaycan adlarını verəcəyik, adları dəyişdirilmiş kəndlərə öz əsl adlarını qaytaracağıq. Biz mütləq bunu edəcəyik. Çünki haqq-ədalət bizim tərəfimizdədir. Bizim başqa ölkələrin torpağında gözümüz yoxdur, öz torpağımızı da heç kimə verən deyilik.

Bu gün mövcud olan Ermənistan tarixi Azərbaycan torpaqlarında yaradılıb. Bu barədə kifayət qədər tarixi sənədlər var. Biz heç vaxt ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcəyik. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!".

### "Sən səfalət içində, özü də özünə aid olmayan yerlərdə dövlət qurmuş balaca bir ölkə Türkiyə boyda ölkəyə necə iddia qaldıra bilərsən?"

"Ermənistan regional sabitlik üçün təhdiddir. Ermənistan Türkiyəyə qarşı ərazi iddiası irəli sürüb. Bu, onların konstitusiyasında öz əksini tapıb, təsbit edilib. Ermənistan indi Sevr müqaviləsini canlandırmaq istəyir",- deyən dövlət başçısı onu da bildirib ki, bu gün işğalçı ölkə səfalət içində yaşayır, ancaq layiq olmadığı iddialar irəli sürür: "Sən səfalət içində, özü də özünə aid olmayan yerlərdə dövlət qurmuş balaca bir ölkə Türkiyə boyda ölkəyə necə iddia qaldıra bilərsən, onu necə ittiham edə bilərsən?! Sən heç olmasa öz potensialına da bax, Türkiyənin potensialına da bax". "Bizim Türkiyə ilə sıx əlaqələrimiz bundan sonra da inkişaf edəcək",-deyən Prezident İlham Əliyev onu da bildirib ki, Ulu Öndər Heydər Əliyev demişkən, "bir millət, iki dövlət" prinsipi əsasında, bütün məsələlərdə bir yerdəyik. Hər bir məsələdə bir-birimizin yanındayıq"-.

### "Paşinyan Soros rejiminin məhsuludur"

Azərbaycan Prezidenti hələ bu günə kimi, Ermənistanın müstəqilliyinin ancaq formal xarakter daşıdığını, Soros tərəfindən idarə olunduğunu da deyib.

"Müstəqillik Ermənistanda formal xarakter daşıyır. Sən necə müstəqil ölkəsən ki, sən öz qərarını qəbul edə bilmirsən. Necə müstəqil ölkəsən ki, səni idarə edən Sorosdur",- deyən dövlət başçısı Ermənistanın Corc Soros tərəfindən idarə olunduğunu deyib: "Paşinyan Soros rejiminin məhsuludur. Bu gün Ermənistanda söz sahibi Sorosdur. Baxın, Paşinyanın hakimiyyət komandasının tərcümeyi-halına. Hamısı ya Sorosdan, ya "Transperensy"dən, ya da ki, digər insan hüquqları təşkilatlarındandır. Onlar bu gün Ermənistanda baş verən despotik hərəkətlərə göz yumurlar".

Azərbaycan Prezidenti beynəlxalq hüquq-müdafiə təşkilatlarının Ermənistanda baş verən cinayətlərə göz yummasını eyni sponsor tərəfindən idarə olunması ilə izah edib: "Soros Ermənistanın başçısıdır, Soros həmin bu dırnaqarası hüquq müdafiəsi təşkilatlarının sponsorudur. Onların sponsoru birdir", - deyə Azərbaycan Prezidenti qeyd edib.

### "İşğal edilmiş torpaqlara haradansa insan gətirib qanunsuz məskunlaşdırmaq cinayətdir"

"Keçən il Ermənistan baş nazirinin səsləndirdiyi cəfəng fikirlər danışıqlar prosesinə ciddi zərbə vurdu. O, "Qarabağ Ermənistandır" deməklə nəinki yalanı bütün dünyaya yaydı və bu da davam edir, eyni zamanda, danışıqlar prosesini mənasız edir. Əgər o hesab edir ki, Qarabağ Ermənistandır, onda nə barədə danışmaq olar? Əgər o, belə hesab edir ki, Qarabağ Ermənistandır, - halbuki, bütün dünya bu cəfəng fikri rədd edib, - onda hansı sülh müqaviləsindən söhbət gedə bilər. Yəni, bu, siyasi təxribat idi". Bunu Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 19-da Heydər Əliyev adına Bakı dərin özüllər zavodunda "Abşeron" yatağının dəniz əməliyyatlarının təməlqoyma mərasimindən sonra Azərbaycan televiziya kanallarına müsahibəsində deyib.

Dövlət başçış deyib: "İkinci siyasi təxribat o idi ki, Azərbaycan Ermənistanla yox, Dağlıq Qarabağla danışıqlar aparmalıdır. Bu da formatı dəyişdirmək deməkdir və buna əlbəttə ki, biz heç vaxt razı ola bilmərik. Çünki bu oyuncaq kriminal xunta rejimi ilə heç bir təmaslarımız ola bilməz. Eyni zamanda, Minsk qrupunun həmsədrləri də buna əlbəttə ki, heç vaxt razı ola bilməzdilər. "Faktiki olaraq bu açıqlamalar onu deməyə əsas verir ki, Ermənistan danışıqlardan çıxıb, biz yox, Ermənistan. Belə olan halda, biz duraq deyək ki, gəlin danışıqlara başlayaq, yaxud da ki, davam edək, sadəcə, məsuliyyətsizlik olar və özümüz özümüzü aldatmamalıyıq, xalqımızı aldatmamalıyıq. Danışıqlar getmir və bu, pandemiyaya görə baş vermir. Əlbəttə, pandemiya müdaxilə edib, amma pandemiyasız da danışıqlar getmir. Siyasi cəhətdən qüsurlu və ziyanlı bu bəyanatlar danışıqlar üçün yer qoymur. Ermənistan tərəfindən qanunsuz məskunlaşdırma aparılır. Bu, bütün beynəlxalq konvensiyalara ziddir. Bunların ağlı çatmır, təcrübəsi, bilikləri yoxdur - bunu elə nümayişkaranə göstərirlər. Bu, Cenevrə Konvensiyasına tamamilə ziddir, bu, cinayətdir. İşğal edilmiş torpaqlara haradansa insan gətirib qanunsuz məskunlaşdırmaq cinayətdir. Bunu Paşinyan rejimi şüurlu şəkildə edir. Bu, təxribatdır. Bizi təxribata çəkirlər, onu göstərirlər internetdə - hansısa Livan erməni ailəsi gəlibdir, orada hansısa iş görür. Ondan sonra bizim qədim tarixi şəhərimiz Şuşa şəhərində o qondarma rejimin qondarma, dırnaqarası rəhbərinin guya andiçmə mərasimini keçirirlər. Bu, növbəti təxribatdır. Bu, bizə qarşı açıq təhqirdir. Onlar hesab edirlər ki, biz buna dözəcəyik? Bunu, bu təxribatı kim edir? Onlar edir. Biz heç bir təxribat etmirik. Biz öz mövqeyimizdə dayanmışıq".

### "Əgər ermənilər öz çirkin planlarından əl çəkməsələr, onlar üçün çox ağır nəticələr olacaq!"

Azərbaycan Prezidenti Ermənistanın azərbaycanlılara qarşı çirkin nifrəti çirkin siyasətdə özünü göstərdiyini bildirib: "Onların Azərbaycana, azərbaycanlılara qarşı nifrəti çirkin siyasətlərində də özünü göstərir. Bir daha demək istəyirəm və onlara xəbərdarlıq etmək istəyirəm ki, əgər öz çirkin planlarından əl çəkməsələr, onlar üçün çox ağır nəticələr olacaq".

"Onlar yeni müharibəyə hazırlaşırlar",- deyən dövlət başçısı bildirib ki, bu, onlara daha böyük zərbə olacaq: "Təmas xəttinə yaxın onların qüvvələrinin konsentrasiyası baş verir. Biz hər şeyi görürük, hər şeyi izləyirik. Onların bütün hərəkətlərini izləyirik. Əlbəttə ki, özümüzü müdafiə edəcəyik. Necə ki, Tovuzda özümüzü müdafiə etdik, bütün başqa istiqamətlərdə də özümüzü müdafiə edəcəyik. Onlar üçün Tovuz hadisələri növbəti dərs oldu. Əgər yeni dərs almaq istəyirlərsə, biz buna hazırıq".

***A.SƏMƏDOVA***

## Trampa zəhərli bağlama göndərən şəxsi yaxalayıblar




ABŞ sərhədçiləri Birləşmiş Ştatların prezidenti Donald Trampa zəhərli bağlama göndərən şəxsi yaxalayıblar. SİA xəbər verir ki, bu barədə hüquq-mühafizə orqanlarına istinadən NBC telekanalı bildirib.

Qeyd edilir ki, ölümlə nəticələnə biləcək zəhəri göndərən kişi Kanadadan ABŞ-a gəlmək istəyən zaman saxlanılıb. Polis hələ cinayətkarın şəxsiyyətini açıqlamayıb. Hadisənin başvermə şəraiti və səbəbləri araşdırılır. Daha əvvəl şənbə günü - sentyabrın 19-da Ağ Evə, Donald Trampın ünvanına zəhərli bağlama göndərilib, ancaq bağlama yoxlama məntəqəsində zərərsizləşdirilib.

## "Mercedes"də silahlar tapıldı



Suraxanı Rayon Polis İdarəsi əməkdaşlarının daxil olan məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Bakı şəhər sakini, əvvəllər məhkum olunan P.Həzilinin idarə etdiyi "Mercedes" markalı avtomobil Hövsan qəsəbəsi ərazisində saxlanılıb.

Daxili İşlər Nazirliyindən SİA-ya verilən məlumata görə, baxış zamanı avtomobildən 1 ədəd qundağı kəsilmiş, nömrəsi silinmiş ov tüfəngi, 1 ədəd nömrəsi silinmiş pnevmatik tapança, 1 ədəd bıçaq, 2 ədəd boş giliz, 1 ədəd dəyənək və üzərinə bıçaq tiyəsi bərkidilmiş alət aşkar edilərək götürülüb.

# Qarabağ probleminin həlli kimlərə və niyə sərf etmir?

### Fövqəldövlətlərin “nə sülh, nə müharibə” siyasətinin arxasında hansı maraqlar dayanır?

Ermənilərin Azərbaycanla sərhəddə yerləşən yaşayış məntəqələrini artilleriya atəşinə tutması və mülki şəxslərin həlak olması Azərbaycanda müharibə çağırışlarını artırıb. Son günlər həm yerli, həm də xarici mətbuatda Qarabağda müharibənin başlaya biləcəyi haqda məlumatlar yayılır. Artıq bıçaq sümüyə dirənib. Bu problem nəhayət həll edilməlidir.

### İşğal probleminin sülh yolu ilə həll cəhdləri tükəndi

Ermənistan Helsinki Yekun Aktının 3 əsas prinsipinin daha 2-sini kobud surətdə pozub. Güc tətbiq edib və Azərbaycanın ərazi bütövlüyünü pozub. 3-cü prinsipi isə hələ XX əsrin əvvəllərində Azərbaycan torpaqları üzərində öz müqəddaratını təyin edərək dövlət yaratmaqla pozub.

Ermənistanı himayə edən iri dövlətlərin mövqeyi problemi bu şəkildə uzatmaqla Azərbaycanı gec və ya tez reallıqla barışmağa vadar etməkdir. Özləri də yaxşı bilirlər ki, konkret bu situasiyada həmin 3 prinsipin tətbiqi bir arada mümkün deyil.

Əslində, bu prinsiplərlə həll modelini Azərbaycan çoxdan təklif edib, amma nə Ermənistan, nə də həmsədr ölkələr razılaşmayıblar. Bu modelə görə, güc tətbiq etmədən sülh yolu ilə əraziləri boşaldır, keçmiş DQMV ərazisində ermənilərə yüksək muxtariyyət statusu verilir. Yəni, hər 3 prinsip yerinə yetirilmiş olur. Lakin bu, ermənilərə və onların havadarlarına sərf etmir. Münaqişənin həll olunmaması həm Amerikanın, həm Avropanın, həm də Rusiyanın xeyrinədir. Bununla onlar hər iki dövlətə təzyiq göstərə bilirlər.

30 ildir deyilir ki, münaqişə sülh yolu ilə həll olunmalıdır. Amma, ortada bir fakt var ki, danışıqlar bir nəticə vermir, artıq bütün variantlar tükənib, çünki ermənilər hətta dünyada ən yüksək muxtariyyətə, yarımmüstəqil dövlətə belə razı deyillər. Beynəlxalq təşkilatlar və ATƏT-in Minsk Qrupunun həmsədrləri olan böyük dövlətlər bunun üçün Yerevana heç bir təzyiq göstərmirlər.

### Rusiyanın münaqişədə maraq və mövqeləri

Məlum olduğu kimi, Ermənistan KTMT, Avrasiya İqtisadi İttifaqı, Gömrük İttifaqı və sair təşkilatlarda üzvdür. Üstəlik, Rusiyanın cənubda NATO-ya qarşı ən böyük bazası da Ermənistan ərazisindədir. Kreml bu baza vasitəsilə NATO-ya qarşı cənub-qərb istiqamətindən müdafiə sistemi qurub, eyni zamanda bu ərazidən 4 ölkəyə (Türkiyə, İran, Azərbaycan, Gürcüstan) birbaşa çıxış üçün plasdarm əldə edib. Bu faktorlardan Ermənistan həmişə öz maraqları üçün istifadə etməyə çalışır. Düzdür, Rusiya Azərbaycanla yaxşı əməkdaşlıq və normal münasibətlərə malikdir, amma yuxarıda göstərilən səbəblərdən Ermənistan əleyhinə hər hansı bir addım ata bilmir.

Müharibənin Rusiyaya sərf etməməsi açıq-aşkar ortadadır. Status-kvonun qalması şəraitində Moskva hər iki respublikanı öz təsiri altında saxlayır. Müharibə başlayarsa, Azərbaycan qısa müddətdə işğal olunmuş torpaqlarını azad edə bilər, sonra isə Rusiyadan asılığını ləğv edər və Qərb ölkələrinin yanında yer alar.

Əgər Rusiya müharibəyə birbaşa müdaxilə etsə, onda beynəlxalq mövqelərini xeyli zəiflədərdi. Onsuz da Gürcüstan və Ukrayna hadisələrindən sonra Qərb bütün dünyada Rusiya əleyhinə ictimai rəy formalaşdıra bilib. Heç bir variantda Rusiya müharibədən qazanclı çıxmaz.

Ümumiyyətlə, Rusiya müharibəyə birbaşa müdaxilə edə bilərmi? Fikrimizcə, müharibə başlasa, belə müdaxilə olmayacaq, əvvələ ona görə ki, buna hüquqi əsası yoxdur, ikincisi ona görə ki, Moskvanı neytrallaşdırmadan Bakı antiterror əməliyyatlarına başlamayacaq.

Azərbaycan öz işğal olunmuş ərazilərində anti-terror əməliyyatına başlasa, o zaman Rusiya KTMT çərçivəsində və ikitərəfli razılaşmalara əsasən Ermənistana yardım göstərməyəcək. Bunu açıq şəkildə dəfələrlə bəyan ediblər. Yalnız birbaşa Ermənistan ərazisinə hər hansı bir ölkə hücum eləsə, o zaman Rusiya KTMT-dəki öhdəliyi üzrə yardım göstərə bilər. Qarabağ isə rəsmi tanınmış Azərbaycan əraizisidir.

Lakin qeyd etməliyik ki, problemin həllində Rusiya təkbaşına rol oynaya bilməz. Rusiya münaqişənin həllinə səmimi olaraq girişsə belə, Qərb dövlətləri buna maneçilik törətmək üçün əlindən gələni edəcəklər. Onların da Yerevana təzyiq rıçaqları var və bundan yararlanacaqlar.

### Qarabağın azad edilməsi Qərbə niyə sərf etmir?

Paşinyan Amerika tərəfindən təşkil olunan rəngli inqilab nəticəsində hakimiyyətə gələndən sonra, bütün rusiyayönümlü məmurları vəzifədən azad edərək yerinə amerikayönümlüləri təyin etdi və nəticədə Ermənistan hakimiyyəti tam heyətdə Amerikanın nəzarətinə keçdi. Düzdür, Ermənistan Rusiyadan müəyyən asılılıqları olduğundan Vaşinqton hələlik Paşinyan hakimiyyətini Rusiya əleyhinə proseslərə çox da cəlb edə bilmir, lakin onu Azərbaycanın üstünə qısqırtmaqla həm Rusiyaya mesaj verir, həm də Azərbaycana güclü təzyiq vasitəsi əldə edir.

Dərin planda baxsaq, bu münaqişəni elə tabeliklərində olan erməni lobbisinin əli ilə Qərb dövlətləri qızışdırıb. Bununla, onlar SSRİ-nin daxildən etnik münaqişələr zəminində dağılmasına nail oldular. İndi bu münaqişə onların müxtəlif missiyalar vasitəsi ilə Qafqaza rahatca “burnunu soxmaları” üçün şərait yaradır. Bu münaqişə qaldıqca Qərb hər iki ölkəyə təsir imkanlarını saxlayır. Ona görə də, münaqişənin həllini istəmirlər, Azərbaycanın hərbi güc tətbiq etməsinə də imkan vermirlər.

Belə olmasaydı, Azərbaycan Prezidentinin “biz öz torpaqlarımızı istənilən yolla azad edəcəyik” bəyanatları Qərbdə qısqanclıqla yanaşmaz, “bu problemin həllinin hərbi yolu mümkün deyil” kimi anormal reaksiyalar verməzdilər.

Necə yəni güc tətbiq etməmək? Axı, sülh yolu ilə işğal olunmuş ərazilər boşaldılmır. ABŞ və Avropanın bu mövqeyini anlamaq mümkün deyil. Həm demokratiyadan, hüquqdan-filandan danışırlar, həm də aşkar ikili standartlar tətbiq edirlər.

ABŞ və Fransa (onun timsalında Aİ) konkret olaraq, həmişə ermənilər dəstəkləyib. Baxmayaraq ki, Ermənistan Paşinyan hakimiyyətə gələnədək daha çox Rusiyanın yanında yer alıb və bir sıra təşkilatlarda onun müttəfiqidir, Rusiya isə ABŞ-ın düşmənidir. Azərbaycan isə daha çox Qərblə inteqrasiyadadır və iqtisadi əlaqələri də əsasən qərblədir. Bu halda, məntiqlə, ABŞ Azərbaycanın tərəfində olmalıdır, lakin məntiqin ziddinə olaraq əksinədir, xristian təəssübkeşliyi hər şeyi arxa plana atır.

**Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu**

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi” istiqaməti çərçivəsində hazırlanıb.*

*Azərbaycan öz işğal olunmuş ərazilərində anti-terror əməliyyatına başlasa, o zaman Rusiya KTMT çərçivəsində və ikitərəfli razılaşmalara əsasən Ermənistana yardım göstərməyəcək. Bunu açıq şəkildə dəfələrlə bəyan ediblər. Yalnız birbaşa Ermənistan ərazisinə hər hansı bir ölkə hücum eləsə, o zaman Rusiya KTMT-dəki öhdəliyi üzrə yardım göstərə bilər. Qarabağ isə rəsmi tanınmış Azərbaycan əraizisidir.*

### Müharibə başlasa vəziyyət necə ola bilər?

ATƏT Minsk qrupunun həmsədrləri olan dövlətlərin rəsmiləri Azərbaycanın Ermənistanın terrorçu dəstələri tərəfindən işğal altında saxlanan ərazilərini hərbi yolla azad etməsinin yolverilməz olduğunu açıq bəyan edirlər. Xristian həmrəyliyi nümayiş etdirərək Ermənistanı müdafiə edən bu fövqəldövlətlər problemin sülh yolu ilə həlli üçün isə qəsdən heç nə etmirlər.

Lakin sülh danışıqları dayanıb, cəbhə bölgəsində də vəziyyət gərginləşir, həm bu ermənilər tərəfindən edilir. Biz ermənilərin mülki əhalimizə qarşı terror aktlarının qarşısını almaq üçün təsirli cavab tədbirləri həyata keçirməliyik. Misal üçün, hər dəfə erməni terrorçuları bizim mulki şəxsi öldürəndə, ermənilərin həmin istiqamətdə yerləşən hərbi hissələrinə və komanda qərargahlarına ağır zərbələr endirilməlidir. Son vaxtlar elə belə də edilir.

Son 15 ildə Azərbaycan Silahlı Qüvvələri həm texniki arsenal, həm də peşəkar şəxsi heyət cəhətdən xeyli dərəcə güclənib. Ordumuz ən müasir hərbi texnologiyalara malikdir, üstəlik, vətəni azad etmək üçün son damla qanınadək döyüşəcək peşəkar hərbçilərlə zənginləşib. Ermənistanda isə vəziyyət bunun tam əksinədir. Müharibə başlasa, Azərbaycan ordusu qısa bütün işğal olunmuş ərazilərimizi terroristlərdən azad edə bilər. Bunu dünyanın əksər strateji institutları və hərbi tədqiqat mərkəzləri bildirirlər.

Azərbaycan xalqının əzmi torpaqlarımızın işğal altında qalması ilə barışmayacaq, gec-tez bu beynəlxalq riyakarlıqdan bezərək problemi adekvat yolla həll edəcək. Hələlik isə, dövlət və xalq bu istiqamətdə birgə fəaliyyət göstərməli, son məqsədə çatmaq üçün səbrli olmalı, düşünülmüş addımlar atmalı və o günə hazırlıqlı olmayılıq. O günə isə lap az qaldı. Ədalət bizim tərəfimizdədir, qələbə də bizim tərəfimizdə olacaq.

**Elçin Bayramlı**

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

23 sentyabr

# Səs

Son səhifə

## “Barselona” daha bir futbolçusunu satdı



“Barselona” futbolçusu Xorxe Kuenkini “Vilyarreal”a satıb. Bu barədə hər iki klubun saytı məlumat yayıb. 21 yaşlı müdafiəçi ilə 5 illik müqavilə imzalanıv. “Vilyarreal” bu transfer üçün 2.5 milyon avro təzminat ödəyib. Oyunçunu geri almaq hüququnu özündə saxlayan “Barselona” Kuenki başqa bir kluba keçəcəyi təqdirdə, təzminatdan 20 faiz alacaq.

Qeyd edək ki, X.Kuenki “Barselona”nın gənclər komandasında 65 matçda iştirak edib. O, əsas komandada İspaniya kubokunda cəmi 1 görüşdə meydanda olub.

## “Çelsi” 30 milyon avroya qapıçı transfer edir

***Fransanın “Renn” klubunun qapıçısı Eduard Mendi “Çelsi”yə keçib.***



Qol.az xəbər verir ki, bunu London klubunun baş məşqçisi Frenk Lempard bugünkü mətbuat konfransında deyib. Onun sözlərinə görə, 28 yaşlı qolkiperin keçidi həll olunub. Seneqal millisinin üzvü yaxın günlərdə tibbi müayinədən keçmək üçün İngiltərəyə yollanacq.

Britaniya mətbuatı bu transferə görə “Çelsi”nin “Renn”ə 30 milyon avro ödəyəcəyini yazıb. Bu isə Fransa klublarının satdığı ən bahalı qapıçı kimi rekorddur. Qeyd edək ki, “Renn” Eduard Mendini 2019-cu ildə 4 milyon avro qarşılığında “Reyms”dən alıb.

## Zamiq: “Toya 15 minə gedirəm”

Müğənni Zamiq Hüseynov verilişlərin birində qonaq olub. SİA-nın məlumatına görə, ifaçı aparıcı Elşən Orucovun “15 minə toya gedirsən” sözlərinə belə cavab verib: “20 ildir sənətdəyəm, hər şey əladır. Çalışdığım qədər yaxşı musiqi ilə məşğul olur, bəstəkarlarla çalışıram. Ömrümün sonuna qədər çalışacam keyfiyyətli musiqilər təqdim edim. 15-20 min manata toyları idarə edirəm”.



İfaçı dostluq münasibətlərindən də bəhs edib: “İndiki zəmanədə dost xəyanətinə əla baxıram. Artıq hamı ona normal baxır. Dost-dosta xəyanət edəndə artıq təəccüblənmirəm”. Elşən Zamiqə “Şou-biznesdə hər kəs özünə ad qoyur. Sənin nə əcəb adın yoxdur?” sualını ünvanlayıb. İfaçı bu reaksiyanı verib: “Valideynlərim mənə ad qoyub. Odur ki, ikinci ada ehtiyyacım yoxdur”.

## Yolu keçən piyadanı maşın vuraraq öldürdü



Şirvan şəhəri ərazisində “Mercedes” markalı avtomobillə yolu keçən F.Həsənova vurub. Daxili İşlər Nazirliyindən SİA-ya verilən xəbərə görə, sentyabrın 21-də saat 21 radələrində Şirvan şəhəri ərazisində şəhər sakini Q.Əliyev idarə etdiyi “Mercedes” markalı avtomobillə yolu keçən həmyerlisi Fərqanə Həsənovanı vurmuş, nəticədə qadın aldığı xəsarətlərdən hadisə yerində ölüb. Şirvan ŞPŞ tərəfindən araşdırma aparılır.

## Telegraph: “qripə və koronavirusa eyni vaxtda yoluxma ölüm riskini artırır”

Mövsümi qripə və yeni koronavirus infeksiyasına eyni vaxtda yoluxma (super infeksiya) insanın ölüm riskini xeyli artırır. AZƏRTAC “The Daily Telegraph” qəzetinə istinadla xəbər verir ki, bu barədə Böyük Britaniyanın “Public Health England” (PHE) hökumət xidməti məlumat yayıb.



Məlumatda qeyd edilir ki, yanvardan aprel ayına qədər xəstəxanalara yerləşdirilən pasiyentlərin xəstəlik tarixçəsinin tədqiqi zamanı “super infeksiyaya” yoluxanlarda ölüm səviyyəsinin 43 faizə çatdığı məlum olub. Halbuki təkcə koronavirusa yoluxanlar arasında bu göstərici 23 faiz təşkil edir.

“İnsanlar hələ də qripin soyuqdəyməyə bənzədiyini düşünür, lakin bu, belə deyil. Əgər siz hər iki infeksiyaya yoluxsanız ciddi problemləriniz olacaq”, - deyə qripli pasiyentlər xəstəxanaya yerləşdirilən zaman koronavirusa yoluxma təhlükəsinə diqqət çəkən PHE-nin tibbi direktoru İvonn Doyl bildirib.

“The Daily Telegraph” qəzetinin məlumatına görə, Böyük Britaniyanın 30 milyona yaxın vətəndaşı mövsümi qripdən pulsuz peyvənd hüququ qazanacaq ki, bu da səhiyyə xidmətinə koronavirusun ikinci yayılma dalğası ilə effektiv mübarizə aparmağa imkan verəcək. Birləşmiş Krallıq tarixində əhalinin vaksinasiyası üzrə ən iri proqram 50 yaşdan yuxarı bütün sakinləri, 12 yaşına qədər uşaqları, tibbi işçilərini və əhalinin zəif təbəqəsini əhatə edəcək.

## 5 nəfər sürücünü döyüb avtomobilini aldılar

Balaxanı qəsəbə sakini A.Şahgəldiyevi döyərək avtomobilini almaqda şübhəli bilinən Y.Hüseynov saxlanılıb. Daxili İşlər Nazirliyindən SİA-ya verilən xəbərə görə, Sabunçu RPİ-nin 12-ci Polis Şöbəsinə müraciət edən Balaxanı qəsəbə sakini A.Şahgəldiyev sentyabrın 20-də qəsəbə ərazisində 5 nəfərin onu döyərək “Niva” markalı avtomobilini aldıqlarını bildirib.



Keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində quldurluğu törətməkdə şübhəli bilinən qəsəbə sakini, əvvəllər məhkum olunmuş Y.Hüseynov polis əməkdaşları tərəfindən saxlanılmış, avtomobil sahibinə qaytarılıb. Sabunçu RPİ tərəfindən əməliyyat-axtarış tədbirləri davam etdirilir.

## Qubada müəmmalı yanğınların səbəbi bilindi

Quba rayonunun Dəlləkli kəndi ərazisində kəndin 4 sakininə məxsus təsərrüfatlarda ot tayalarının kənd sakini olan 3 yeniyetmə tərəfindən qəsdən yandırılması müəyyən edilib. Daxili İşlər Nazirliyindən SİA-ya verilən xəbərə görə, cari il sentyabrın 19-da və 20-də Quba rayonunun Dəlləkli kəndi ərazisində kəndin 4 sakininə məxsus təsərrüfatlarda ot tayalarında yanğın hadisələri baş vermiş, yanğınsöndürmə briqadaları və polis əməkdaşları tərəfindən yanğınların qarşısı alınıb.



Yanğınların qəsdən törədilməsi şübhə doğurduğundan dərhal müvafiq araşdırmalara başlanılıb. Quba RPŞ əməkdaşlarının keçirdikləri təxirəsalınmaz tədbirlərlə yanğınların kənd sakini olan 3 yeniyetmə tərəfindən törədilməsi müəyyən edilib. Polis əməkdaşları tərəfindən aparılan söhbətlər zamanı onlar törətdikləri əməlləri səmimi etiraf etmiş, peşman olduqlarını bildiriblər.

**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600